RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 20 (8899) ŞƏNBƏ, 29 yanvar 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Naxçıvanın inkişaf modeli



## Qədim yurdun müasir siması, modern quruculuğu, səmərəli islahatları

*...Təyyarə eniş zolağına doğru yaxınlaşdıqca illüminatordan bəyaza bürünmüş ecazkar şəhəri, sevimli diyarın inzibati mərkəzini seyr edirik.*

*Kiçik Qafqaz sıra dağları, möhtəşəm Gəmiqaya, buludlara dikilən Qapıcıq zirvəsi, mistik Əshabi-Kəhf, heyrətamiz Haçadağ, qarlı Nəhəcir dağı bütün əzəməti ilə göz qamaşdırır. Bu müqəddəs ucalığın qoynunda füsunkar təbiətin, mərd camaatın, qürurlu tariximizin alınmaz, əyilməz məskəni yerləşir...*

*Nuh Peyğəmbərin gəmisinin ilk dayanacağı, həm də Qədim Türk-Oğuz yurdu, Dədə-Qorqud binəsi, İslam mədəniyyətinin sütunlarından biri...*

*Əmir Temurdan başlayaraq neçə-neçə dünya fatehinə baş əyməyən, son onilliklər boyu isə rəzil düşmənə qan udduran iftixar mənbəyimiz...*

*5,5 min kv.km-lik ərazi, 462 min insan...*

*Üç tərəfdən düşmənlə sərhəd, Ana Vətəndən uzaq düşmə nisgili...*

*Amma daim yüksəlişdə olan, torpağının altı tarixin möcüzələrini, üstü isə inkişafın möcüzələrini yaşadan əziz yurdumuz...*

*Mistika ilə gerçəkliyi, ənənələrlə modernliyi, əzmkarlıqla nailiyyəti, zəhmətlə nəticəni, gedilən yolun uğur hesabatı ilə sabahın düzgün hədəflərini ləyaqətlə birləşdirən göz bəbəyimiz...*

*Nuhçıxandayıq, Nəqşi-Cahandayıq, Naxçıvandayıq, muxtar respublikadayıq...*

### Qafqazın lider ölkəsinin lider bölgəsi

"Naxçıvan" məfhumunun doğurduğu təəssürat hər kəsdə dəyişməzdir, bu, məhz tarixlə bağlı olur. Qədim dövrlərin örnək olaylarına, Orta əsrlərin qəhrəmanlıq hadisələrinə, müasir çağımızın isə ən mühüm dövlətçilik və müstəqillik ilklərinə müəlliflik edən bu yurd və onun insanları daim tarixin gərdişini dəyişdirib. Amma müsbətə doğru dəyişdirib!

Tarixə nəzər salıb, fikirlərimizi faktlaşdırmağa əslində nə hacət?!. Bunları bilməyənmi var?!.

Amma bəlkə bəzilərinin hələ də bilmədikləri var. Məsələn, Naxçıvan müstəqillik illərində inkişaf dinamikasına görə Azərbaycanda ən öncül region olub. Hələ 10 il əvvəl Prezident İlham Əliyev bunu rəsmən bəyan etmişdi: "Muxtar respublika inkişafa görə Azərbaycanda liderdir". Ötən il isə dövlət başçısı bu mövzuya yenidən qayıtdı və dedi: "Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordçu bölgədir".

"Lider region", "rekordçu bölgə" ifadələri əlbəttə ki, iltifat sözləri deyil, konkret faktlara, real göstəricilərə və elə adi gözlə görüləsi genişmiqyaslı dəyişikliklərə əsaslanan Ali Qiymətdir!

Blokadanın min cür ağırlığına, fəsadlarına baxmayaraq, gərgin əmək və misilsiz əzmkarlığın təcəssümü olan fədakarlığa, Vətən naminə çəkilən zəhmətə verilən Prezident Dəyəridir!

Dünyanın Qafqazın lider ölkəsi kimi tanıdığı bir məmləkətin lider bölgəsi olmaq nə deməkdir? Yəni Naxçıvan artıq bütün Qafqazın ən inkişaf etmiş regionudur!

*Ardı 4-cü səh.*

# Azərbaycan regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrilib

## Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriyanı videoformatda qəbul edib.



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycanla Ümumdünya Gömrük Təşkilatı arasında səmərəli əməkdaşlığı və təşkilatın ölkəmizə göstərdiyi dəstəyi qeyd edərək, Kunio Mikuriya ilə əvvəllər keçirdiyi görüşləri və aparılmış müzakirələri məmnunluqla xatırladı. Dövlətimizin başçısı Ümumdünya Gömrük Təşkilatının Baş katibinin Azərbaycanla əməkdaşlığı daim diqqət mərkəzində saxlamasını yüksək qiymətləndirdiyini, təşkilatın dəyərli tövsiyə və məsləhətlərinin ölkəmizdə bu sektorun inkişafına töhfə verdiyini diqqətə çatdırdı.

Baş katib Kunio Mikuriya Azərbaycanda gömrük xidmətinin yaradılmasının 30 illiyi ərəfəsində Bakıda olmasından məmnunluğunu ifadə etdi, ölkəmizin regionda və dünyada rolunun artması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. O, rəhbərlik etdiyi təşkilatın Azərbaycanda gömrük sahəsində aparılan islahatlara dəstəyinin davam edəcəyini vurğulayaraq, Azərbaycanın regional inkişaf və nəqliyyat qovşağı mərkəzinə çevrildiyini bildirdi. Kunio Mikuriya Cənubi Qafqaz regionunda yaranmış sabitliyin regional əməkdaşlıq, insanlararası təmaslar və nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli imkanlar yaratdığını qeyd etdi.

Prezident İlham Əliyev ölkəmizin əlverişli coğrafi mövqeyi, infrastruktura yatırılmış investisiyalar, qonşu dövlətlərlə qurulmuş əlaqələr sayəsində Azərbaycanın regionun nəqliyyat-logistika mərkəzinə çevrildiyini bildirdi və regional bağlantıların əməkdaşlıq üçün əlverişli mühit yaratdığını diqqətə çatdırdı. Dövlətimizin başçısı regional əməkdaşlıq məsələlərinə toxunaraq, COVID-19 pandemiyasının yaratdığı qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycanın keçən il əsas tərəfdaş dövlətlərlə ticarət dövriyyəsinin artmasının ölkə iqtisadiyyatının bərpasının və inkişafının göstəricisi olduğunu bildirdi. Azərbaycan Prezidenti keçən il iqtisadiyyatın 5 faizdən çox, qeyri-neft sektorunun 7 faiz, qeyri-neft sənaye sektorunun isə 20 faiz artmasının aparılmış islahatların nəticəsi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Ermənistan və Azərbaycan arasında münaqişənin bitməsindən sonra regionda əməkdaşlıq üçün yeni imkanların yarandığını vurğuladı.

Görüşdə Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Xocalı soyqırımının otuzuncu ildönümü haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan tarixinin ən dəhşətli səhifələrindən biri olan Xocalı soyqırımından 30 il ötür.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozaraq keçmiş sovet ordusunun Xankəndidə yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərinə hücum etdi və dinc əhaliyə misli görünməmiş qəddarlıqla divan tutdu.

Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirildi, 487 dinc sakin ağır yaralandı, 1275 nəfər isə girov götürüldü.

Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın o zamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır.

Ermənistanın azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımı, eləcə də Bağanıs Ayrım, Qaradağlı, Ağdaban və Başlıbel qətliamları ilə müşayiət olunan hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizə qədəri işğal edildi, 20 min vətəndaşımız qətlə yetirildi, 50 min nəfərdən artıq adam yaralandı və əlil oldu. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə qaldı.

Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı.

Vətən müharibəsinin gedişatında Ermənistanın Gəncəni, Bərdəni, digər şəhər və kəndlərimizi kütləvi məhvetmə imkanlarına malik ballistik və reaktiv raketlərlə, kasetli bombalarla hədəfə alması bir daha sübut etdi ki, zamanla metodlar dəyişsə də, mülki əhaliyə qarşı qanlı cinayətlər törətmək Ermənistan tərəfinin daim həyata keçirdiyi dövlət siyasətidir. 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi.

Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir.

Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xocalı soyqırımı zamanı qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsini faciənin otuzuncu ildönümü ərəfəsində bir daha dərin hüznlə yad edərək **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Xocalı soyqırımının otuzuncu ildönümü ilə əlaqədar tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2022-ci il*

# Kunio Mikuriyanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında əməkdaşlığın inkişafında xidmətlərinə görə Kunio Mikuriya "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 yanvar 2022-ci il*

# Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

"Nur Otan" Partiyasının sədri seçilməyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bizim dost ölkələrimiz arasında münasibətlər bu gün uğurla inkişaf edir, birgə layihələr fəal surətdə həyata keçirilir. Biz Azərbaycan ilə Qazaxıstan arasında qarşılıqlı maraq doğuran bütün istiqamətlər üzrə əməkdaşlığı bundan sonra da dərinləşdirmək əzmindəyik.

Azərbaycanın və Qazaxıstanın hakim partiyaları - Yeni Azərbaycan Partiyası və "Nur Otan" Partiyası arasında əməkdaşlığın müsbət dinamikasını və fəal dialoqu məmnuniyyətlə qeyd etmək istərdim. Partiyalararası əlaqələr ölkələrimiz arasında ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir.

Əminəm ki, rəhbərlik etdiyimiz partiyalar arasında sıx qarşılıqlı fəaliyyət xalqlarımızın mənafeyi, ölkələrimizin firavanlığı naminə bundan sonra da dinamik inkişaf edəcək və dərinləşəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, Qazaxıstanın qardaş xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti,***
***Yeni Azərbaycan Partiyasının Sədri***

*Bakı şəhəri, 28 yanvar 2022-ci il*

# Əsl DOST




## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəzlərdə ötən il 410 mindən çox şəxsə xidmət göstərilib

Hər bir dövlətin əsas funksiyalarından biri əhalinin sosial müdafiəsinin təşkili və daxili siyasətin sosial yönümlülüyünün ön planda saxlanılmasıdır.

Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda da dövlət siyasətinin prioritetini bu məsələ təşkil edir. Əhalinin rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi, sosial müdafiə sisteminin etibarlılığının ən yüksək səviyyəyə çatdırılması Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin əsas hədəflərindən biridir. Məhz bunun nəticəsidir ki, son illərdə sosial-iqtisadi sahədə həyata keçirdiyi yeniliklər və islahatlarla İlham Əliyev dünyada "Ən islahatçı Prezident" statusuna sahibdir.

### Müasir Azərbaycanın simasını əks etdirən mərkəz

Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və sosial sahədə ildən-ilə geniş miqyas alan islahatlar, əhalinin rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlar, əldə olunan böyük sosial uğurlar da bunu bir daha təsdiqləyir.

*Ardı 5-ci səh.*

# Kimdir günahkar?!

Artıq sosial şəbəkələrdə ən populyar videolar məktəblərdə çəkilərək yayılan videokadrlar olur. Şagirdə şillə vuran direktor, şagirdin tədris prosesinə uyğun olmayan davranışlarını görməzdən gələn müəllim...

Sonra cəmiyyətdən gələn müxtəlif yanaşmalı reaksiyalar, kimi müəllimi, kimi şagirdi, kimi də zəmanəni qınayır...

Sonra əlaqədar qurumların, direktor, yaxud müəllimə töhmət verilməsi ilə bağlı açıqlaması gəlir...

Sonra... Hər kəs rahatlaşır, sakitləşir...

Ta ki, ya şagirdə fiziki cəza tətbiq edən müəllimlə, ya da məktəbdə etik davranış qaydalarını pozan şagirdə göz yuman müəllimlə bağlı növbəti videokadr yayımlanana qədər...

Məktəb qapalı mühitdir və valideynlər, cəmiyyət sinif otaqlarında baş verənlərdən yalnız şagirdlərin danışdığı, özlərinin xəbər alıb bildikləri qədər məlumatlıdırlar.

Həm də cəmiyyətimiz hər zaman məktəbə müqəddəs məkan, müəllimə ilahi varlıq kimi yanaşdığı üçün övladını tükənməz etimadla məktəbə, müəllimə etibar edir, onların tərbiyəsinin də, təhsilinin də, təliminin də məhz məktəb və müəllimin öhdəliyində olduğuna, eyni zamanda bu gözləntilərinin yaxşı formalaşdırılacağına səmimi-qəlbdən inanırlar.

*Ardı 5-ci səh.*

# Paşinyan prezidentliyə yeni namizədi də xaricdən seçə bilər

## İrəvanda siyasi gərginlik daxili savaşa yol açır

Ermənistanın daxili ictimai, sosial-siyasi vəziyyətinin dərin böhrana doğru getməsi hər keçən gün özünü daha qabarıq formada büruzə verməkdədir.

Hazırda üzləşdiyi dərin iqtisadi böhrandan çıxış yolu tapa bilməyən Ermənistanda hökm sürən siyasi parçalanma ölkəni uçuruma yuvarladır.

Armen Sarkisyanın prezidentlik postundan istefa verməsinə ölkədə ictimai-siyasi reaksiya kifayət qədər ziddiyyətli xarakter daşıyır.

Belə ki, Ermənistanda prezident institutu istənilən parlament hökumətində olduğu kimi, praktiki olaraq simvolik xarakter daşıyır.

*Ardı 8-ci səh.*

# Baş nazir Əli Əsədov Ümumdünya Gömrük Təşkilatının Baş katibi ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 28-də Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən gömrük sahəsində həyata keçirilən genişmiqyaslı islahatlar barədə söhbət açılıb.

Görüş zamanı Azərbaycan ilə Ümumdünya Gömrük Təşkilatı arasında həyata keçirilən uğurlu əməkdaşlıq yüksək qiymətləndirilib, əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

# Müdafiə Nazirliyində kollegiya iclası keçirilib





Yanvarın 28-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2021-ci ilin yekunlarına dair kollegiya iclası keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda nazir müavinləri, qoşun növlərinin komandanları, nazirliyin baş idarə, idarə, xüsusi təyinatlı təhsil müəssisələrinin, xidmət və müstəqil şöbə rəisləri cəlb olunublar. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər iclasa videobağlantı vasitəsilə qoşulub.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ötən il ordu quruculuğu sahəsində aparılan islahatlar, qoşunların imkan və qabiliyyətlərinin artırılması, əməliyyat və döyüş hazırlığı, silah və texnika ilə təchizatı, maddi-texniki, təminatı, peşəkar kadrlarla komplektləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və digər sahələrdə əldə olunan nailiyyətlər barədə geniş məruzə ilə çıxış edib.

General-polkovnik Kərim Vəliyev qeyd edib ki, hesabat dövründə Azərbaycan Ordusunda müxtəlif növ hərbi təlimlər, döyüş hazırlığı məşğələləri keçirilib, qoşunların döyüş qabiliyyəti artırılıb, şəxsi heyətin peşəkarlıq səviyyəsi yüksəlib. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə quruculuq işləri aparılıb, yeni hərbi obyektlər istifadəyə verilib, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Qeyd olunub ki, Baş Qərargah və ümumilikdə Müdafiə Nazirliyinin mərkəzi aparatında, qoşun növləri qərargahlarında təşkilati-struktur dəyişiklikləri edilib. Quru Qoşunları Komandanlığı, yeni birlik, birliklərin tərkibində əməliyyat (komando) birləşmələri və digər bölmələr yaradılıb və onların əməliyyat imkanları genişləndirilib.

Kollegiya iclasında müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev, müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov, müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev, müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov bölmələrin döyüş qabiliyyətinin artırılması, xidməti-döyüş fəaliyyətinin təşkili və döyüşə hazırolma vəziyyətinin yüksək səviyyədə saxlanılması ilə bağlı 2021-ci il ərzində keçirilən təlim-məşqlər və görülən digər tədbirlər barədə məruzə ilə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran müdafiə naziri general-polkovnik Zakir Həsənov 2021-ci ildə xidməti-döyüş hazırlığının yekunları və 2022-ci tədris ilində qarşıda duran əsas vəzifələrdən danışıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi altında son illərdə qazanılan uğurlardan danışıb. Bildirilib ki, ötən illərdə olduğu kimi, cari ildə də əsas diqqət Silahlı Qüvvələrin Ali Baş Komandanının Azərbaycan Ordusunun qarşısında qoyduğu bir sıra vacib tapşırıqların və bundan irəli gələn mühüm məsələlərin həllinə yönəldilib. Nazir qeyd edib ki, 2021-ci ildə Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətinin təhlili qarşıya qoyulan bütün tapşırıqların tam həcmdə yerinə yetirildiyini göstərib.

İclasda Quru Qoşunları, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Xüsusi Təyinatlı Qüvvələrin inkişafı, təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirildiyi vurğulanıb.

General-polkovnik Zakir Həsənov hərbi islahatların davam etdirilməsi və qoşunların döyüş qabiliyyətinin, o cümlədən əməliyyat imkanlarının daha da artırılmasının 2022-ci ildə də prioritet məsələ olacağını xüsusi qeyd edib.

Ötən il həyata keçirilən tədbirləri təhlil edən müdafiə naziri qoşun növlərinin fəaliyyətini qiymətləndirib, döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı, o cümlədən dövlət sərhədində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılması məsələlərini diqqətə çatdırıb, qoşunların döyüş qabiliyyətinin daha da artırılması məqsədilə 2022-ci ildə icra olunacaq fəaliyyətlər və qarşıda duran vəzifələr ilə bağlı komandir-rəis heyəti qarşısında müvafiq tapşırıqlar qoyub.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

# Azərbaycanın müdafiə naziri Pakistan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikasının Quru Qoşunları komandanı general Qamar Caved Bacvaya və Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razaya başsağlığı ünvanlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, başsağlığında deyilir: "Bəlucistan bölgəsində xaincəsinə edilmiş terror hücumu zamanı qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması haqqında məlumatlar məni dərindən kədərləndirir.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və səbir diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm".

# Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının 2.4-cü bəndinə əsasən, Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin Azərbaycan Respublikasının Prezidentinə vaxtında təqdim edilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi növbəti il üçün dövlət büdcəsinin ilkin layihəsini, həmçinin növbəti il və sonrakı üç il üçün icmal büdcənin proqnozunu və 2023-cü il və sonrakı üç il üçün Ortamüddətli xərclər çərçivəsi (OMXÇ) sənədinin ilkin layihəsini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi isə dövlət investisiya proqramının istiqamətlər üzrə ilkin layihəsini 2022-ci il aprel ayının 5-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına və aprel ayının 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

2. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi 2023-cü ilin və 2026-cı ilin sonuna hədəflənən icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi və 2026-cı ilin sonuna hədəflənən dövlət borcunun ümumi daxili məhsula nisbət göstəricisinin yuxarı həddi barədə təkliflərini, 2023-cü il və sonrakı üç il üçün büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri ("təhsil", "kənd təsərrüfatı" və "ətraf mühitin mühafizəsi") üzrə OMXÇ sənədinin layihəsini, habelə növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcəsinin layihəsini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi isə Azərbaycan Respublikasının növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasını və proqnoz göstəricilərini2022-ci il sentyabrın 1-dək Azərbaycan Respublikasının İqtisadi Şurasına, sentyabrın 15-dək Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

3.1. cari il üçün ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqramını dəqiqləşdirmək məqsədilə 2021-ci ilin ilkin statistik məlumatlarını 2022-ci il fevralın 5-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

3.2. növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının, dövlət büdcəsi layihəsinin hazırlanması üçün zəruri statistik məlumatların mütəmadi olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və digər əlaqədar təşkilatlara təqdim edilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. 2023-cü il və sonrakı üç il üçün dövlət büdcəsinin və icmal büdcənin proqnozunun (gəlir, xərc, o cümlədən investisiya xərclərinin məbləği və kəsir) ilkin ortamüddətli göstəricilərini 2022-ci il fevralın 5-dək və aprelin 1-dək, dəqiqləşdirilmiş variantını 2022-ci il avqustun 25-dək, dövlət büdcəsində dövlət investisiya xərclərinin dəqiqləşdirilmiş məbləğini 2022-ci il iyulun 20-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

4.2. büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrinin proqramları (tədbirləri) üzrə fəaliyyət planlarının, habelə baza proqnozlarının və yeni siyasət təşəbbüslərinin hazırlanmasına dair təlimat məktubunu 2022-ci il fevralın 15-dək aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin;

4.3. bu Sərəncamın 6.9-cu və 7-ci bəndlərinə uyğun olaraq, 2023-cü il və sonrakı üç il üçün vergilər, rüsumlar, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar və digər gəlirlər üzrə proqnoz göstəricilərinin Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə, gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə vergi və digər gəlirlər üzrə proqnoz göstəricilərinin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə, sosial sığorta ödənişləri üzrə proqnoz göstəricilərinin isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə 2022-ci il avqustun 15-dək müzakirəsini təmin etsin.

5. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsinə uyğun olaraq, dövlət büdcəsinin layihəsi ilə birlikdə aidiyyəti dövlət orqanları tərəfindən hazırlanan sənədlərin qanunvericiliklə müəyyən olunmuş müddətlərdə Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilməsi üçün həmin sənədlərin icmallaşdırılması işləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə həvalə edilsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

6.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən 2022-ci il aprelin1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilən dövlət büdcəsi və icmal büdcə ilə əlaqədar məlumatlar əsasında sosial-iqtisadi proqnoz göstəricilərini dürüstləşdirərək, 2022-ci il aprelin 8-dək Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim etsin;

6.2. 2022-ci il üçün dəqiqləşdirilmiş, 2023-cü il və sonrakı üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin, ümumi və əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun 2023-cü il üçün ilkin proqnozlarını 2022-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını və növbəti il üçün dövlət büdcəsinin layihəsi ilə uyğunlaşdırmaq məqsədilə dövlət investisiya proqramının istiqamətlər üzrə layihəsini 2022-ci il avqustun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.3. 2023-cü il və sonrakı üç il üçün ümumi daxili məhsulun həcminin, istehlak qiymətlərinin ortaillik indeksinin, ortaaylıq əməkhaqqının, əhalinin gəlir və xərclərinin, məşğulluğunun və demoqrafik göstəricilərinin ilkin variantını 2022-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını isə 2022-ci il avqustun 1-dək Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna təqdim etsin;

6.4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə neft-qaz sahəsi üzrə dövlət və hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan sazişlər üzrə podratçı tərəflərin investisiya planları ilə bağlı məlumatların təqdim edilməsinə dair təkliflərini 2022-ci il avqustun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

6.5. 2023-cü ildə özəlləşməyə çıxarılacaq obyektlərin siyahısını, özəlləşmədən daxilolmaların proqnoz göstəricilərini 2022-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.6. sosial-iqtisadi proqnoz göstəricilərini və dövlət investisiya proqramının istiqamətlərinin ilkin layihəsini hazırlayıb 2022-ci il mayın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.7. 2022-ci il iyulun 1-dək ölkənin şəhər və rayonları üzrə vergi uçotuna alınmış, habelə neft-qaz sahəsində fəaliyyət göstərən vergi ödəyiciləri (podratçılar), "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu, dövlət adından yaradılan publik hüquqi şəxslər, büdcə təşkilatları, dövlət büdcəsindən və dövlətə məxsus fondlardan maliyyələşən digər orqan və qurumlar, habelə səhmlərinin və ya paylarının 51 və daha artıq faizi birbaşa və ya dolayısilə dövlətə məxsus olan hüquqi şəxslər (vergi ödəyiciləri), mərkəzləşdirilmiş qaydada uçota alınan digər vergi ödəyiciləri ilə bağlı 2021-ci il və cari ilin ötən dövrü üçün hesablanmış, azaldılmış, ödənilmiş və artıq ödənilmiş daxilolmalara dair məlumatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.8. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.8-ci maddəsinə müvafiq olaraq 2023-cü il və sonrakı üç il üçün neft və qeyri-neft sektorü üzrə vergi növlərinin və dövlət rüsumunun əsaslandırılmış proqnoz göstəricilərini 2022-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

6.9. 2023-cü il və sonrakı üç il üçün vergilər, rüsumlar, dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar və digər gəlirlər üzrə proqnoz göstəricilərinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə müzakirəsinin 2022-ci il avqustun 15-dək başa çatdırılmasını təmin etsin. Müzakirə zamanı proqnoz göstəricilərinə dair razılaşma olmadığı təqdirdə 5 gün müddətində əsaslandırılmış arayışı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi 2023-cü il və sonrakı üç il üçün gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə vergi və digər gəlirlər üzrə proqnoz göstəricilərinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə müzakirəsinin 2022-ci il avqustun 15-dək başa çatdırılmasını təmin etsin. Müzakirə zamanı proqnoz göstəricilərinə dair razılaşma olmadığı təqdirdə 5 gün müddətində əsaslandırılmış arayışı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında" 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı ilə yaradılmış Komissiya siyahısı həmin Qərarla təsdiq edilmiş iri dövlət şirkətlərinin, Azərbaycan Respublikasının İnvestisiya Holdinqi isə onun idarəetməsinə verilmiş dövlət şirkətləri, müəssisələr və dövlətin payı olan təsərrüfat cəmiyyətlərinin 2023-cü il və sonrakı üç il üçün gəlir və xərcləri, eləcə də dövlət büdcəsinə ödəniləcək dividendlər üzrə proqnoz məlumatlarını 2022-ci il avqustun 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

9. Azərbaycan Respublikasının aidiyyəti mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanları:

9.1. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində mərkəzi, yerli icra hakimiyyəti və digər dövlət orqanlarının müvafiq strukturlarının yaradılması və onların maliyyələşdirilməsi ilə bağlı tələb olunan vəsaitə dair təkliflərini 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

9.2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sektorlar və istiqamətlər üzrə 2023-2026-cı illəri əhatə edən dövrdə (hər il üzrə ayrılıqda) bərpa və yenidənqurma işlərinin aparılması üçün tələb olunan vəsait barədə təkliflərini 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

9.3. vergi və gömrük sahəsində güzəştlərə dair təkliflərini və onların qiymətləndirilməsi üçün zəruri məlumatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların dövlət büdcəsinin gəlirlərinə təsirinin qiymətləndirilməsi metodologiyası və həmin güzəşt və azadolmaların reyestrinin aparılması Qaydası"nın təsdiq edilməsi barədə" 2020-ci il 8 fevral tarixli38 nömrəli və "Vergi və gömrük güzəştlərinin səmərəliliyinin qiymətləndirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2020-ci il 3 noyabr tarixli 436 nömrəli qərarlarına uyğun olaraq Vergi və gömrük sahəsində verilmiş güzəştlərə dair Mərkəzləşdirilmiş Elektron Reyestr Sistemi vasitəsilə Azərbaycan Respublikanın Maliyyə Nazirliyinə təqdim etsinlər.

10. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, idarələrin, təşkilatların və dövlət müəssisələrinin rəhbərlərinə, şəhər və rayon icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təlimat məktubuna uyğun olaraq lazım olan materialları iqtisadiyyatın müvafiq sahələrinin inkişafının təhlili əsasında növbəti büdcə ili və gələn üç il üçün ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasını, proqnoz göstəricilərini hazırlamaq məqsədilə 2022-ci il fevralın 5-dək və iyulun 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

11. Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar:

11.1. dövlət büdcəsi vəsaitinin səmərəli istifadəsini təmin etmək məqsədilə funksional təsnifatın müvafiq bölmələri çərçivəsində inzibati təsnifata uyğun olaraq, boş (vakant) ştatlar və müddətli əmək müqaviləsi ilə işə götürülən işçilər (vakant ştatların vəzifə adı, sayı və vəzifə maaşı göstərilməklə) barədə məlumatları hər rübdən sonrakı ayın 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

11.2. 2023-cü il və sonrakı üç il üçün büdcə layihələrini və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulan məqsədli dövlət proqramlarının və tədbirlərin maliyyə tutumu barədə məlumatları Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyən etdiyi formalara uyğun olaraq 2022-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

12. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi müvafiq olaraq büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə sektor strateji planlarını hazırlayıb 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

13. Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin:

13.1. monetar sektor və tədiyə balansı üzrə ətraflı statistik məlumatları 2022-ci il fevral ayının 5-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

13.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin hazırladığı tədiyə balansının proqnozuna dair rəyini 2022-ci il aprel ayının 15-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin.

14. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən Sığorta Fondu, Azərbaycan Respublikasının Dövlət Neft Fondu növbəti büdcə ili və gələn üç il üçün öz büdcə layihələrinin ilkin variantını 2022-ci il martın 15-dək, dəqiqləşdirilmiş variantını isə 2022-ci il iyulun 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

15. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Mineral-xammal Bazasının Bərpası üzrə Dövlət Fondunun, Meşələrin qorunub saxlanması və təkrar istehsalı fondunun, Ətraf mühitin mühafizəsi üzrə dövlət fondunun, Xüsusi mühafizə olunan təbiət ərazilərinin idarə edilməsi və mühafizəsi üçün yaradılan müvafiq idarələrin xüsusi fondlarının, Su bioresurslarının artırılması, bərpası və mühafizəsi fondunun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi isə "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunun növbəti büdcə ili və gələn üç il üçün büdcə layihəsinin ilkin variantını 2022-ci il martın 1-dək, dəqiqləşdirilmiş variantını isə 2022-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdıraraq, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər.

16. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə, nazirliklərin, komitələrin, dövlət idarə və təşkilatlarının, səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan səhmdar cəmiyyətlərinin rəhbərlərinə, yerli icra hakimiyyəti orqanlarına tapşırılsın və bələdiyyələrə tövsiyə edilsin ki:

16.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təlimat məktublarına uyğun olaraq, 2023-cü il və sonrakı üç il üçün dövlət investisiya proqramının layihəsini hazırlamaq üçün müvafiq məlumatları və sənədləri 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

16.2. büdcə xərclərinin funksional təsnifatının pilot bölmələri üzrə 2023-cü il və sonrakı üç il üçün bütün mövcud və davam etməkdə olan layihələr üzrə baza proqnozlarını və yeni siyasət təşəbbüsləri ilə bağlı sifarişlərini, eləcə də fəaliyyət planlarını Azərbaycan Respublikası Maliyyə Nazirliyinin bu Sərəncamın 4.2-ci yarımbəndində göstərilən təlimat məktubuna uyğun olaraq 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər;

16.3. davam edən layihələrin əsaslı xərclərinə dair məlumatları, həmçinin yüksək prioritetli yeni investisiya təklifləri üçün tələb olunan xərclərin təhlilinə dair məlumatları 2022-ci il martın 1-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

16.4. 2023-cü il və sonrakı üç ilin büdcə layihəsi hazırlanarkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 aprel tarixli 164 nömrəli Qərarı ilə təsdiq edilmiş "Büdcə təşkilatlarında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, təbii qaz və su) istehlakına görə limitlərin müəyyən edilməsi və tənzimlənməsi Qaydası"nın tələblərinə əməl etsinlər.

17. Nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən digər təşkilatlar, dövlət büdcəsindən maliyyə yardımı (dotasiya, subvensiya və subsidiya) alan idarə və təşkilatlar 2022-ci il iyulun 1-dək:

17.1. aidiyyəti dövlət proqramlarının, tədbirlər planlarının icra vəziyyəti və əldə olunmuş nəticələr barədə məlumatları hazırlayıb Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsinlər;

17.2. dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tədbirlərin dövlət sifarişinə aid olanları, həmçinin beynəlxalq və ölkə səviyyəli tədbirlərin keçirilməsi, habelə xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu, onlara xidmət göstərilməsi üçün dövlət büdcəsində vəsaitin nəzərdə tutulması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

18. Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi 2023-cü il və sonrakı üç il üçün ölkənin yanacaq-enerji balansının layihəsini hazırlayıb 2022-ci il iyunun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

19. Nazirliklər, komitələr, idarələr və digər büdcə təşkilatları, şəhər və rayon icra hakimiyyəti orqanları, dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsini təmin edən publik hüquqi şəxslər və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatlar "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.12-ci maddəsinə müvafiq olaraq 2023-cü il üçün büdcə xərcləri üzrə (büdcədənkənar vəsaitlər üzrə xərclər də daxil olmaqla) layihələrini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdıraraq nəticələrini 2022-ci il avqustun 15-dək protokolla rəsmiləşdirsinlər.

20. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 11.13-cü maddəsinə müvafiq olaraq mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, dövlət büdcəsindən maliyyələşdirilən büdcə təşkilatları, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq digər hüquqi şəxslər, bələdiyyələr, büdcə və büdcədənkənar dövlət fondları ölkənin növbəti büdcə ili üzrə dövlət büdcəsi və icmal büdcənin layihəsinin və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin, eləcə də büdcə xərclərinin funksional təsnifatının pilot bölmələrini əhatə edən xərclər çərçivəsinin hazırlanması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən tələb olunan, habelə növbəti büdcə ili və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin hazırlanması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən tələb olunan əlavə əsaslandırıcı materialların və hesablamaların təqdim edilməsini təmin etsinlər.

21. Dövlət büdcəsi gəlirlərinin icrasını təmin edən orqanlar, nazirliklər, komitələr və dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan digər təşkilatlar, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti növbəti büdcə ili və sonrakı üç il üçün büdcə layihələrini tərtib edərkən bu Sərəncamdan, eləcə də "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunundan və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"ndan irəli gələn digər vəzifələri keyfiyyətlə və müəyyən olunmuş icra müddətlərində yerinə yetirilməsini təmin etsinlər.

22. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Bakı şəhəri, 28 yanvar 2022-ci il*

# Azərbaycan və İran xarici işlər nazirlərinin telefon danışığı olub




Yanvarın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazirlər, iki ölkə arasındakı münasibətlərin müxtəlif aspektlərinin inkişafından məmnunluq ifadə ediblər.

Son həftə ərzində İranın yol və şəhərsalma naziri Rüstəm Qasiminin Azərbaycana səfərinin nəticələri, əldə olunmuş razılıqlar, habelə Azərbaycanın müdafiə naziri Zakir Həsənovun İrana səfəri və bu çərçivədə keçirilmiş görüşlər iki ölkə arasındakı əlaqələrin inkişafının bariz göstəricisi kimi vurğulanıb.

Tərəflər, o cümlədən birgə layihələrin həyata keçirilməsini, Astaraçay üzərində təməli qoyulmuş yeni körpünün, eləcə də İran Astarasında dəmir yolu yük terminalının tikintisinin 2022-ci ildə tamamlanmasının hədəflənməsinin ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edəcəyini vurğulayıblar.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının növbəti iclasının bu ilin mart ayında Bakıda keçirilməsinin planlaşdırıldığı məmnunluqla bildirilib.

Nazirlər, Azərbaycanın azad olunmuş torpaqlarında İran şirkətlərinin yaxın zamanlarda konkret layihələrlə işə başlayacağını vurğulayıb və bununla əlaqədar fikir mübadiləsi aparıblar.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional məsələləri müzakirə ediblər.

# "BMTQAK azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına geri qayıtması üçün Azərbaycana dəstək göstərməyə hazırdır"

Yanvarın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov BMT-nin ölkəmizdəki rezident-əlaqələndiricisi xanım Vladanka Andreyeva ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, V.Andreyeva Azərbaycanı ATƏT-in Təhlükəsizlik Əməkdaşlıq Forumunda sədrliyə başlaması münasibətilə təbrik edərək, sədr qismində ölkəmizin müəyyən etdiyi prioritetləri alqışlayıb və sədrlik dövründə ona uğurlar arzulayıb. O, 2021-ci ilin oktyabrında BMTQAK missiyasının ölkəmizə səfər etməsini məmnunluqla xatırlayaraq, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına geri qayıtması məsələsində BMTQAK-ın Azərbaycan hökumətinə dəstək göstərməyə hazır olduğunu vurğulayıb.

Ölkəmizin BMT-nin digər ixtisaslaşmış qurumları və fondları ilə əməkdaşlığına toxunan V.Andreyeva BMT-nin Ətraf Mühit Proqramının işğaldan azad olunmuş ərazilərdə biomüxtəliflik və ekosistemlərin bərpasına dəstək göstərməyə hazır olduğunu bildirib. O, 2022-ci ildə qeyd olunacaq Azərbaycanın BMT üzvlüyünə qəbul edilməsinin 30 illiyi ilə əlaqədar il ərzində silsilə tədbirlərin keçirilməsinin planlaşdırıldığı barədə məlumat verib.

Nazir Ceyhun Bayramov ATƏT-in Təhlükəsizlik Əməkdaşlıq Forumuna sədrliyin vacibliyini vurğulayaraq, ölkəmizin prioritetlərini təqdim etmək üçün Vyanaya səfər etdiyini və forum çərçivəsində ATƏT iştirakçı ölkələrinin nümayəndə heyətləri ilə faydalı fikir mübadiləsi apardığını bildirib. Sədrlik dövründə Azərbaycanın bir sıra qlobal çağırışlara diqqət ayıracağını qeyd edib. BMTQAK missiyasının ölkəmizə səfərinin uğurla həyata keçdiyini bildirən nazir həmçinin BMT-nin digər agentlikləri ilə faydalı əməkdaşlığın mövcud olduğunu ifadə edib.

Azərbaycanın ətraf mühit məsələlərinə böyük önəm verdiyini deyən nazir azad olunmuş ərazilərin "yaşıl enerji" zonası elan edildiyini xatırladıb və burada bütün layihələrin ətraf mühit məsələlərinə xüsusi diqqət yetirilməklə icra olunduğunu diqqətə çatdırıb.

Azərbaycanın BMT üzvlüyünə qəbul edilməsinin 30 illiyi ilə əlaqədar Azərbaycan hökuməti tərəfindən də bir sıra tədbirlərin keçirilməsinin planlaşdırıldığı vurğulanıb.

Görüşdə həmçinin miqrasiya, Dayanıqlı İnkişaf Məqsədləri və digər sahələrdə praktiki əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparılıb.

# Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında 30 min hektaradək meşə bərpa olunacaq

"Ağdam, Füzuli və Şuşa şəhərlərinin baş planlarının hazırlanaraq təsdiq olunması prosesi həyata keçirilib. Baş planlara əsasən, müvafiq işlərin görülməsi birbaşa minatəmizləmə fəaliyyəti ilə əlaqədardır".

AZƏRTAC xəbər verir ki, bu sözləri Ağdamda ANAMA-nın mobil sahə düşərgəsinin açılışında iştirak edən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, Əlaqələndirmə Qərargahının İdarələrarası mərkəzi katibliyinin rəhbəri Nüsrət Süleymanov söyləyib.

O deyib: "Prezidentin sərəncamlarından biri də "Bəsitçay" Dövlət Qoruğunun bərpa edilməsi ilə əlaqədar olub. Qeyd etmək istərdim ki, işğaldan azad olunmuş ərazilərdə meşəbərpa tədbirlərini nəzərdə tutan və 2022-2026-cı illəri əhatə edən dövlət proqramının tədbirlər planı artıq təsdiqlənib. Bu plana əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında 30 min hektaradək meşənin bərpa olunması nəzərdə tutulur. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı 15 yol infrastruktur layihəsi həyata keçirilir. Artıq Zəfər yolu istifadəyə verilib. Digər istiqamətlərdə də işlər davam edir. İstər dəmir yollarının çəkilməsi, hava limanlarının tikintisi, istər Şərqi Zəngəzur dəhlizinin yaradılması istiqamətində tədbirlər görülür. Bütün işlər idarələrarası mərkəzdə işçi qruplar tərəfindən sistemli şəkildə əlaqələndirilməklə həyata keçirilir. Əsas məqsəd dövlət başçısının verdiyi tapşırıqları səmərəli və keyfiyyətli şəkildə yerinə yetirməkdir".

# Azərbaycanın baş prokuroru İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri ilə görüşüb



Azərbaycanın baş prokuroru Kamran Əliyev yanvarın 28-də Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Robert Spano ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Azərbaycan Prokurorluğu ilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi arasında əlaqələrin səmərəliliyini qeyd edən Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sahəsində insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində aparılan mütərəqqi islahatlar haqda məlumat verib.

Baş prokuror qeyd edib ki, prokurorluq orqanlarında İnsan Hüquqları üzrə Avropa Konvensiyası və Məhkəmənin presedent hüququnun öyrənilməsinə və implementasiyasına xüsusi önəm verilir.

Söhbət zamanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə Azərbaycan Prokurorluğunun əməkdaşlıq perspektivləri, o cümlədən prokurorların məhkəməyə təlim-tədris səfərlərinin təşkili, məhkəmənin hakimləri tərəfindən Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının konfranslarında hüquq elminin müxtəlif sahələri üzrə aktual məsələlərə həsr olunan mühazirələrlə çıxışları ətrafında müzakirə aparılıb. Həmçinin Avropa Şurası və onun qurumları ilə əməkdaşlıq məsələlərindən məmnunluq ifadə olunub və bu yaxınlarda Azərbaycan Prokurorluğunun nümayəndəsinin Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratında müsabiqədə uğur qazanaraq bir il müddətində staj keçəcəyi qeyd olunub.

Görüşdə Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov və ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəliyinin rəhbəri Fəxrəddin İsmayılov iştirak ediblər.

# Azərbaycanın və Almaniyanın prokurorluq qurumları arasında əlaqələrin gücləndirilməsi müzakirə edilib



Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev Almaniyaya işgüzar səfəri çərçivəsində yanvarın 28-də Karlsrue şəhərində almaniyalı həmkarı Peter Frank ilə görüşüb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə əsaslanan dostluq münasibətlərinin mövcudluğu vurğulanıb. Bu əlaqələrin qarşılıqlı hörmətə və etimada əsaslanan qurumlararası əməkdaşlığın inkişafına töhfə verdiyi qeyd edilib. Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər və qazanılmış uğurlu nəticələr barədə ətraflı məlumat verib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən terrorçuluqla mübarizə, qanunsuz miqrasiya, nifrət zəminində törədilmiş cinayətlər, məişət zorakılığı, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, korrupsiya cinayətləri və digər mövzularda səmərəli fikir mübadiləsi aparılıb. Ölkələrimizin prokurorluq qurumları arasında əlaqələrin gücləndirilməsi və gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə əməkdaşlıq haqqında memorandumun imzalanması təklif olunub.

Görüşdə Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov da iştirak edib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin növbəti iclası keçirilib








Yanvarın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.

YAP-dan AZƏRTAC-a bildiriblər ki, iclasın müzakirəsinə "Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi" məsələsi çıxarılıb.

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra partiyanın həyatında yeni mərhələ başlayıb. Yeni qəbul olunmuş Nizamnaməyə əsasən, partiyanın yeni strukturu müəyyən edilib. Vurğulanıb ki, Nizamnaməyə əsasən, partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz.

Mərkəzi Aparatın rəhbəri qeyd edib ki, artıq ötən ilin sentyabrından partiyanın Bakı şəhəri üzrə təşkilatlarının sədrləri vəzifələrinin icrasına başlayıblar. Ötən dövrdə respublikanın digər şəhər və rayonları üzrə yerli təşkilatların sədrliyinə namizədlərin müəyyənləşdirilməsi ilə bağlı geniş təhlillər, müzakirələr aparılıb. Yekunda təklif olunan namizədlərin siyahısı hazırlanaraq əvvəlcədən İdarə Heyətinin üzvlərinə təqdim edilib.

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvləri Cavid Osmanov, Asif Əsgərli, Ramin Məmmədov, Şahin İsmayılov, Hikmət Babaoğlu, Elmar Qasımov, Anar İsgəndərov və Eldar İbrahimov yerli təşkilatların sədrliyinə layiqli namizədlərin irəli sürüldüyünü qeyd ediblər.

Müzakirələrdən sonra səsvermə keçirilib və aşağıdakı şəxslər yerli təşkilatların sədrləri təyin olunublar:

1. Hüseynov Ramiz Ağəli oğlu - YAP Sumqayıt şəhər təşkilatı
2. Əliyev Abbas İslam oğlu - YAP Abşeron rayon təşkilatı
3. Quliyev Ayaz Sərvər oğlu - YAP Xızı rayon təşkilatı
4. Abdullayev Füzuli Tahir oğlu - YAP Ağsu rayon təşkilatı
5. Muradov Zaur Fazil oğlu - YAP İsmayıllı rayon təşkilatı
6. Qasımov Qasım Nurməhəmməd oğlu - YAP Qobustan rayon təşkilatı
7. Qasımlı Tural Şahnəzər oğlu - YAP Şamaxı rayon təşkilatı
8. Orucov Ramil Mayıl oğlu - YAP Gəncə şəhər təşkilatı
9. Heydərov Rövlan Nəsib oğlu - YAP Naftalan şəhər təşkilatı
10. Yolçuyev Meydanəli Binəli oğlu - YAP Daşkəsən rayon təşkilatı
11. İsmayılov Elçin Şəmil oğlu - YAP Goranboy rayon təşkilatı
12. İsayev Vüqar Sabir oğlu - YAP Göygöl rayon təşkilatı
13. Bayramov Gündüz Çankay oğlu - YAP Samux rayon təşkilatı
14. Əhmədov Rövşən Nağı oğlu - YAP Ağcabədi rayon təşkilatı
15. Quliyev Mansur Söhbət oğlu - YAP Ağdam rayon təşkilatı
16. Şadlinskaya Faqət Nəcəb qızı - YAP Bərdə rayon təşkilatı
17. Həşimova Almaz Ələkbər qızı - YAP Füzuli rayon təşkilatı
18. Əliyev Vahid Surxay oğlu - YAP Xocalı rayon təşkilatı
19. Hüseynov Vüsal Cavay oğlu - YAP Xocavənd rayon təşkilatı
20. Əliyev Təvəkkül Böyükkişi oğlu - YAP Şuşa rayon təşkilatı
21. Əsədov Eldar Garay oğlu - YAP Tərtər rayon təşkilatı
22. Hacıyev Etibar Cəfər oğlu - YAP Ağstafa rayon təşkilatı
23. Nağıyev Rüstəm Vaqif oğlu - YAP Gədəbəy rayon təşkilatı
24. Nəbiyev Anar Telman oğlu - YAP Qazax rayon təşkilatı
25. Vəliyev Fəxrəddin Vəli oğlu - YAP Şəmkir rayon təşkilatı
26. Pənahov Nihad Məmmədtağı oğlu - YAP Tovuz rayon təşkilatı
27. Balaqadaşov Məhəmməd Müslüm oğlu - YAP Xaçmaz rayon təşkilatı
28. Nəbizadə Fidan Nizami qızı - YAP Quba rayon təşkilatı
29. İbramxəlilov David Nurəddin oğlu - YAP Qusar rayon təşkilatı
30. Baxşıyev Samir Vadim oğlu - YAP Siyəzən rayon təşkilatı
31. Balabəyov Mehdi Eyyub oğlu - YAP Şabran rayon təşkilatı
32. Cəfərov Həbib Zərxan oğlu - YAP Astara rayon təşkilatı
33. Mirxaslı Mirsüleyman Mirismayıl oğlu - YAP Cəlilabad rayon təşkilatı
34. Mirzəyev Malik Soltanağa oğlu - YAP Lerik rayon təşkilatı
35. Əmənullayev İqbal Qabil oğlu - YAP Lənkəran şəhər təşkilatı
36. Əliyev Seyfəddin Abusət oğlu - YAP Masallı rayon təşkilatı
37. Alışov Anar Xalıq oğlu - YAP Yardımlı rayon təşkilatı
38. Yusubov Cavanşir Nəriman oğlu - YAP Mingəçevir şəhər təşkilatı
39. Rəcəbov Əlişah Rəcəb oğlu - YAP Ağdaş rayon təşkilatı
40. Şükürov Sahib Yunis oğlu - YAP Göyçay rayon təşkilatı
41. Cəbrayılov Ayaz Akif oğlu - YAP Kürdəmir rayon təşkilatı
42. Abdullayeva Şəhla Əhməd qızı - YAP Ucar rayon təşkilatı
43. Əliyev Rafiq Vaqif oğlu - YAP Yevlax rayon təşkilatı
44. Əliyev İlkin Böyükağa oğlu - YAP Zərdab rayon təşkilatı
45. Səfərov Müşfiq Arzuman oğlu - YAP Beyləqan rayon təşkilatı
46. Ağayev Səfa Malik oğlu - YAP İmişli rayon təşkilatı
47. Şıxəliyev Lütvəli İbrahim oğlu - YAP Saatlı rayon təşkilatı
48. Rüstəmov Varis Rüstəm oğlu - YAP Sabirabad rayon təşkilatı
49. Balayev Azad Rizvan oğlu - YAP Balakən rayon təşkilatı
50. Allahverdiyev Natiq Şükür oğlu - YAP Qax rayon təşkilatı
51. Ağasəfov Abil Adil oğlu - YAP Qəbələ rayon təşkilatı
52. Məhərrəmov Saleh Calal oğlu - YAP Oğuz rayon təşkilatı
53. Mikayılov Daşqın Gündüz oğlu - YAP Şəki şəhər təşkilatı
54. Qurbanov Habil Qurban oğlu - YAP Zaqatala rayon təşkilatı
55. Fərzəliyev Arif Aydın oğlu - YAP Cəbrayıl rayon təşkilatı
56. Misirov Həbib Məhərrəm oğlu - YAP Kəlbəcər rayon təşkilatı
57. Rüstəmov Təhmasib İbrahimxəlil oğlu - YAP Qubadlı rayon təşkilatı
58. İlyasov İlqar Süleyman oğlu - YAP Laçın rayon təşkilatı
59. Quluzadə Natiq Qurban oğlu - YAP Zəngilan rayon təşkilatı
60. Qəhrəmanov Zahir Məmmədyar oğlu - YAP Şirvan şəhər təşkilatı
61. Qurbanlı Kamil Məhəmməd oğlu - YAP Biləsuvar rayon təşkilatı
62. Əmirəslanov Elnur Mehman oğlu - YAP Hacıqabul rayon təşkilatı
63. Fərzəliyev Ülvi Cəlil oğlu - YAP Neftçala rayon təşkilatı
64. Əhmədov Elmar Ağakişi oğlu - YAP Salyan rayon təşkilatı

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yeni təyin olunan yerli təşkilatların sədrlərinə fəaliyyətlərində uğurlar arzulayıb.

İclasda həmçinin YAP-ın Şəki şəhər təşkilatının sabiq sədri Həsən Həsənov, Gəncə şəhər təşkilatının sabiq sədri, YAP Təftiş Komissiyasının üzvü Naqif Həmzəyev, Abşeron rayon təşkilatının sabiq sədri Bilman Vəliyev çıxış edərək ötən dövrdəki fəaliyyətlərinə verilən müsbət qiymətə görə təşəkkür edib və yeni sədrlərə işlərində nailiyyətlər arzulayıblar.

Eyni zamanda YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova və yeni təyin olunmuş Sabirabad rayon təşkilatının sədri Varis Rüstəmov göstərilən yüksək etimada görə təşəkkürlərini ifadə edərək, bu etimadı layiqincə doğrultmağa çalışacaqlarını vurğulayıblar.

İclasın sonunda YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qarşıda dayanan vəzifələrdən danışıb və qeyd edib ki, bu il partiyamızın təsis olunmasının 30 illik yubileyi ilə əlaqədar tədbirlər planı hazırlanır. Yubiley ili çərçivəsində bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Tədbirdə həmçinin cari məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

# Ağdamda minaaxtaranlar üçün yeni mobil sahə düşərgəsi salınıb










Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə əməliyyatlarının sürətləndirilməsi məqsədilə maddi-texniki bazasının genişləndirilməsi istiqamətində işləri davam etdirir.

Nazirlər Kabinetinin verdiyi müvafiq tapşırığa əsasən, ANAMA tərəfindən Ağdam rayonunda agentliyin minaaxtaranları üçün yeni mobil sahə düşərgəsi salınıb.

Açılış mərasimində Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov, Nazirlər Kabinetinin Aparat rəhbəri Rüfət Məmmədov, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, Əlaqələndirmə Qərargahının İdarələrarası mərkəzi katibliyinin rəhbəri Nüsrət Süleymanov və Prezidentin xüsusi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Ağdam rayonunda salınan yeni mobil düşərgə Qarabağda icra edilən minatəmizləmə əməliyyatlarına cəlb olunan ANAMA əməkdaşlarına xidmət edəcək. Düşərgə əməliyyat, inzibati və xidməti heyət üçün lazımi şəraitlə təmin olunub.

Mobil tipli düşərgə müasir avadanlıqlarla təchiz edilib və heyətin bütün zəruri ehtiyaclarını qarşılayacaq müxtəlifölçülü konteynerlərdən ibarətdir. Burada yataqxana, hamam, sanitar qovşaq, yeməkxana, camaşırxana, anbar, ofis və tibb məntəqəsi var. Həmçinin minaaxtaran itlərin saxlanılması, texnika və nəqliyyat vasitələrinin təmiri üçün xüsusi yerlər nəzərdə tutulub.

Şəxsi heyətin asudə vaxtlarının səmərəli keçirilməsi üçün düşərgə futbol-voleybol meydançası və idman üçün trenajorlarla təmin edilib. Qeyd edək ki, "yaşıl enerji" zonasının tətbiqi konsepsiyasına uyğun olaraq düşərgə günəş enerjisi ilə qidalanan xüsusi işıq dirəkləri ilə təchiz olunub.

ANAMA-nın Ağdam rayonu üzrə mobil sahə düşərgəsi icra edilən əməliyyatların miqyasının genişləndirilməsinə, mərkəzin işçi heyətinin sayının artırılmasına xidmət edəcək. Konteynerlərdən ibarət olan mobil tipli düşərgə minatəmizləmə əməliyyatlarının aparılması istiqamətindən asılı olaraq gələcəkdə başqa əraziyə daşına bilər.





# Naxçıvanın inkişaf modeli

## Qədim yurdun müasir siması, modern quruculuğu, səmərəli islahatları



*Əvvəli 1-ci səh.*

Onilliklər öncə dövlətçilik və müstəqillik istiqamətində ən mühüm başlanğıclara, rekordlara müəlliflik edən Naxçıvan indi sosial-iqtisadi sahədə artıq Qafqaz miqyasında rekordlara imza atır!

Rəqəmlər adətən insanları, oxucuları yorur. Amma nəzərə alaq ki, rəqəmlər təkzibedilməz faktlardır və bu faktlar görün nələri göstərir: *Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 69 dəfə, sənaye məhsulunun həcmi 117 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 15 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 141 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 348 dəfə, nəqliyyat sektorunda yük daşınması 27 dəfə, pərakəndə əmtəə dövriyyəsi 49 dəfə, əhali gəlirləri isə 61 dəfə artıb...*

Diqqət edin: faizlə yox, dəfələrlə!

Digər göstəriciləri bir kənara qoyub, yalnız birinə baxaq: Naxçıvan sakinlərinin gəlirlərinin 61 dəfə artması onların yaşam səviyyəsinin 61 dəfə yüksəlməsi deməkdir!

### Vaxtilə çıraq işığında oturan, üşüyən Naxçıvan indi enerji ixracatçısıdır

Ulu Öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvandakı fəaliyyəti Azərbaycan tarixinin dönüş mərhələsi və qürur mənbəyidir. Bu dövrə daim təkrar-təkrar qayıdır, onu ən dərin incəliklərinə qədər araşdırmağa ehtiyac duyuruq. Bu illərlə bağlı xatirələrdə həmişə vurğulanan bir məqam olub: blokadanın ilk illərində Naxçıvan enerji təminatından məhrum olmuşdu, kəndlərdəki, şəhərlərdəki mənzillər, o cümlədən muxtar respublika rəhbərinin kabineti isidilmirdi. Ulu Öndəri ziyarət etmiş çoxsaylı insanlar qeyd edirlər ki, Heydər Əliyevin kabinetində paltoda oturmağa məcbur olurmuşlar. Ümummilli Liderin masasındakı çıraq (indi o, Naxçıvandakı Heydər Əliyev Muzeyində sərgilənir) isə həm otağı işıqlandırarmış, həm də onun cüzi istisində əllər isidilərmiş...

Prezident İlham Əliyev də o tarixi günlərin şahidlərindəndir: "Yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu Öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi"...

Bəli, Heydər Əliyev bu vəziyyətdə olan Naxçıvana rəhbərliyə gəlmişdi. İndi isə...

Naxçıvan Muxtar Respublikası enerji ixracatçısıdır!

Nəinki bütün şəhər və kəndlər işıqla 100 faiz təmin olunur, hətta bunu xaricə ixrac edirlər!

Əgər 2003-cü ildə muxtar respublikada cəmi 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, ötən ildə bu göstərici 11-ə çatdırılıb!

Naxçıvan uğur göstəricilərində modern innovasiyalara əsaslanmasa, Prezidentin təbirincə desək, rekordsmenlik göstərməsə, Naxçıvan olmaz axı: elektrik enerjisinə olan tələbatın 65 faizdən çoxu alternativ və bərpaolunan enerji mənbələri hesabına ödənilir! Bu isə hətta inkişaf etmiş ölkələr üçün çox nadir hal hesab edilir.

Müstəqillik illərində sənaye məhsulunun həcminin 117 dəfə artmasını yuxarıda qeyd etdik, bundan əlavə, indiyədək yüzlərlə sənaye müəssisəsi də istifadəyə verilib. Tarixən aqrar bölgə olan Naxçıvanın bu gün güclü potensiallı sənaye-aqrar regionuna çevrilməsinin əsas mahiyyəti də məhz enerji təhlükəsizliyinin təmin olunmasıdır. Bu amil muxtar respublikada sənayenin inkişafına möhkəm zəmin yaradıb.

"Güclü sənaye müasir və qüdrətli iqtisadiyyatın açarıdır" fikri Naxçıvan nümunəsində ən real təsdiqini tapır. Fəaliyyəti dayandırılmış sənaye müəssisələrinin bərpa edilməsi və yeni istehsal sahələrinin yaradılması nəticəsində yeni sənaye məhsullarının istehsalına başlanılıb. İndi Naxçıvanda avtomobildən tutmuş hər cür tikinti materialına qədər, ərzaqdan geyimədək yüzlərlə məhsul istehsal olunur və xaricə satılır.

Çıraqdan enerji ixracatına keçilən yol bəlkə də möcuzə sayıla bilər...

Bu möcüzələr silsiləsinə muxtar respublikanın 100 faiz qazlaşdırılmasını, ən ucqar dağ kəndində belə insanların istiliklə bağlı ən kiçik problem yaşamamasını da əlavə edək...

"Ağıllı kənd" modeli ilə onlarla yaşayış məntəqəsinin formalaşdırıldığını, kəndlərin artıq qəsəbə yox, elə müasir şəhər formatında inkişafını, kənddə hələ adi məktəbləri demirik, musiqi məktəblərinin belə üçmərtəbəli binalarda yerləşdiyini və bütün otaqların uşaq-yeniyetmələrlə dolu olduğunu və bu xüsusda xeyli əlavə faktları da möcüzələr sırasına qataq...

Amma möcüzə yalnız mifik anlamda olmur ki, elə Naxçıvanın timsalında onu gerçək həyatın yüzlərlə təzahüründə görürük!

Özü də hələ də blokadanın məhrumiyyətlərini, çətinliklərini yaşayan, üç tərəfdən düşmənlə əhatələnən Naxçıvanın...

### Naxçıvanda İlham Əliyevin quruculuq izləri

Muxtar respublikada əldə olunan nailiyyətlər birmənalı olaraq Heydər Əliyev kursunun uğurla gerçəkləşməsinin, Ulu Öndərin bu bölgə ilə bağlı arzularının, hədəflərinin, vəsiyyətlərinin layiqincə həyata keçirilməsinin təzahürüdür.

Eyni zamanda Prezident İlham Əliyevin siyasətinin, qayğısının, şəxsi nəzarətinin təntənəsidir. Dövlət başçısı kimi bölgəyə 15 dəfə səfər edən Prezident burada 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət müəssisəsinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışını edib. Ölkə rəhbərinin himayəsi, tapşırığı, tövsiyəsi ilə ərsəyə gələn obyektlərin sayı isə minlərlədir.

Muxtar respublikada son illərdə 232 elm və təhsil ocağı, 642 mədəniyyət, səhiyyə, idman obyekti inşa olunub, 109 körpü, 352 inzibati bina, 61 nasos stansiyası, 328 subartezian quyusu tikilib. 98 min 775 iş yeri açılıb. 1346 istehsal və xidmət sahəsi yaradılıb. Bu müddətdə Naxçıvanın yalnız inzibati mərkəzindən kəndlərinə doğru deyil, həm də elə kəndlərdə küçələrarası yollar belə tam asfaltlaşdırılıb. 4 min km-dən artıq yol isə yenidən qurulub.

Muxtar respublikada bütün istiqamətlər üzrə iqtisadi sabitlik qazanılıb, daxili imkanlardan səmərəli istifadə edilib, müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunub, sosial layihələrin əhatə dairəsi genişləndirilib. Xüsusi mülkiyyətin, kiçik və orta sahibkarlığın inkişafı diqqət mərkəzində saxlanılıb, sahibkarlara göstərilən dövlət maliyyə dəstəyinin həcmi ildən-ilə artırılıb, bu sahədə fəaliyyətə süni müdaxilələrin aradan qaldırılması, vergi və gömrük güzəştlərinin tətbiqi özəl sektorun fəaliyyətinin inkişafına müsbət təsirini göstərib. Ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi yüksəlib.

Ötən dövrdə kənd təsərrüfatı məhsullarının həcminin 15 dəfə artması ərzaq təhlükəsizliyinin təmininə xidmət edib. Aqrar sahəyə diqqət və qayğının bir təzahürü də yüzlərlə ailə təsərrüfatlarının formalaşdırılmasıdır ki, bu da özünüməşğulluğa mühüm töhfə verir. Əvvəllər zəruri ərzaq və sənaye məhsullarına olan tələbatını tamamilə idxal hesabına ödəyən muxtar respublikada bu gün 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir, ixrac potensialı getdikcə artır.

İndi muxtar respublikada 16 min hektardan artıq sahədə meşəsalma və meşəbərpa işləri aparılır. Naxçıvanda indi elə bir şəhər, qəsəbə, kənd tapmaq olmaz ki, orada yaşıllıqlar, gülkarlıqlar, meyvə bağları salınmasın. Əgər ötən əsrin 90-cı illərində yaşıllıqların ümumi sahəsi 0,6 faiz idisə, hazırda 20 faizdən artıqdır.

İnkişafın modern istiqamətlərindən biri də rabitə və yeni texnologiyalar sahəsidir. Naxçıvanda müasir rabitə sistemi yaradılıb, ən ucqar dağ kəndlərində genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib. Bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur, qlobal internet sisteminə dördtərəfli çıxış var, bütün yaşayış məntəqələrinin genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətlərindən istifadəsi reallaşdırılıb.

### Davamlı inkişafın sürətli mərhələsi

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf göstəriciləri 2021-ci ildə də mühüm nailiyyətləri əks etdirir. Statistikaya baxaq və nəzərə alaq ki, bu göstəricilər sadəcə rəqəmlər toplusu deyil, böyük zəhmətin, fədakarlığın, düzgün yolun ürəkaçan nəticələridir.

Ötən il ümumi daxili məhsul istehsalı 3 milyard 16 milyon 315 min manat, bir il öncəki göstəricidən 2,4 faiz çox olub. Hər bir nəfərə düşən ümumi daxili məhsul əvvəlki ilə nisbətən 3,4 faiz artaraq 6525 manat, orta aylıq əməkhaqqının məbləği isə 548,8 manat təşkil edib. Ümumi daxili məhsulun tərkibində ilk yeri 27 faizlə sənaye sahəsi tutur və maddi istehsalın payı 59 faizdir. Ötən il muxtar respublikada bir il öncəki göstəricini 1,7 faiz üstələyən həcmdə - 1 milyard 69 milyon 655 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bunda özəl bölmənin payı 92,3 faizdir. Sənayenin inkişafı məqsədilə təsərrüfat subyektlərinə 2021-ci ildə 11 milyon 276 min manat kredit verilib. 194 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, yaxud yaradılması davam etdirilib. İndi Naxçıvanda 384 növdə məhsul istehsal olunur.

2021-ci ildə muxtar respublikada sahibkarlara verilən 38 milyon manatdan artıq kreditin 13 milyon 875 min manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 24 milyon 161 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunub. 52 hüquqi və 2389 fiziki şəxs qeydiyyata alınıb. 2021-ci ildə bir il öncəyə nisbətən 5,3 faiz çox, yəni 573 milyon 380 min manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Muxtar respublikada alternativ enerji istehsalı sahələrinin yaradılması istiqamətində 5 meqavat gücündə "Şərur" Günəş-Elektrik Stansiyasının və Culfa rayonunda 1,1 meqavat gücündə Külək-Günəş Hibrid Elektrik Stansiyasının tikintisi başa çatdırılıb, Şərur rayonunda Günəş- Elektrik Stansiyasının tikintisi davam etdirilir.

Muxtar respublikada inkişafı xarakterizə edən əsas cəhətlərdən biri də tikinti-quruculuq işlərinin həcminin ilbəil artmasıdır. Hər il yaşayış məntəqələrində yeni inzibati binaların və sosial obyektlərin istifadəyə verilməsi, yeni yolların çəkilməsi əhalinin rahat yaşayışına xidmət edir. 2021-ci ildə muxtar respublikada 355 sosial və inzibati obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilib, 149 obyektdə tikinti və yenidənqurma işləri davam etdirilib. Əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib və ötən il əhalinin şəxsi vəsaiti hesabına 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib.

Tikintidən söz düşmüşkən, Türkiyənin İqdır vilayətinə keçərkən Sədərək Gömrük Sərhəd-Buraxılış məntəqəsinin yeni inşa olunan binasının əzəməti, tətbiq edilən texniki innovasiyalar, xidmət keyfiyyətinin yüksəkliyi növbəti təəccübümüzə səbəb oldu. Ötən il istifadəyə verilən buraxılış məntəqəsi, ümumilikdə, Qafqazda son nəsil gömrük nəzarəti, müşahidə texnologiyaları ilə təmin edilən ən müasir infrastrukturdur. Yəni bu da növbəti rekord! Ümumi sahəsi 104 min kvadratmetr olan kompleksdə sürətli keçid üçün şərait, yüklərin rəsmiləşdirilməsi, yoxlama-baxış sistemləri, giriş və çıxış istiqamətlərinin çoxsaylı hərəkət zolaqları, ən nəhayət əhaliyə operativ və maneəsiz xidmət, əslində, bütün gömrük buraxılış məntəqələri üçün örnək olmalıdır. Amma bunu da yetərli saymayan Naxçıvan gömrükçüləri xidməti daha da asanlaşdırmaq üçün buraxılış məntəqəsində yük nəqliyyat vasitələrinin keçidinin və gömrük rəsmiləşməsinin sürətlənməsinə dəstək məqsədilə Sədərək Ticarətin Asanlaşması Mərkəzinin tikintisinə başlayıblar. Ötən il isə büdcə öhdəliyini 108 faiz yerinə yetiriblər.

Bir məqamı unutmayaq, ağır blokada və çətin pandemiya dövründə artımın hətta 0,1 faizlik göstəricisi belə əsl qəhrəmanlıq nümunəsi sayıla bilər, sayılmalıdır da...

### Qədim ənənələrin möhtəşəm davamı

Çoxəsrlik təhsil, elm ənənələrinə malik Naxçıvanda bu istiqamətlər indi sözün əsl mənasında intibah dövrünü yaşayır. Ötən dövrdə müasir informasiya texnologiyaları ilə təmin olunmuş 200-dən artıq məktəb binası istifadəyə verilib, orta ixtisas və ali təhsil müəssisələri üçün yeni tədris korpusları tikilib, peşə məktəbləri yaradılıb. Muxtar respublikanın ümumtəhsil məktəblərində oxuyan 53 mindən çox şagirdin təhsili ilə 7257 müəllim məşğul olur. Ötən tədris ilində məzunlardan ali təhsil müəssisələrinə qəbul göstəricisi 73 faiz təşkil edib. 261 məzun 500-dən yuxarı bal toplayıb, 3-ü Prezident təqaüdünə layiq görülüb. Təhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılıb, tələbə və müəllimlər üçün vahid geyim forması tətbiq edilib.

İstedadı ilə fərqlənən şagirdlərin adı Gənc İstedadların "Qızıl kitabı"na yazılır və Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünü alırlar. 103 ümumtəhsil məktəblərində 22 mindən çox şagird STEAM təhsilinə cəlb olunur. Məktəblərdə 205 idman klubu yaradılıb. Son iki ildə 2000-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına və təlimlərə gedib.

6 elmi-tədqiqat institutunu birləşdirən AMEA Naxçıvan Bölməsi 22 ildir ki, apardığı tədqiqatlar, araşdırmalarla həm elmə töhfələr verir, həm mükəmməl alim formalaşdırma məktəbinə çevrilir. Naxçıvan ali təhsilinin flaqmanı olan 55 yaşlı Dövlət Universitetinin nailiyyətləri isə o qədər çox və genişdir ki, həm də nüfuzu ölkə miqyasını aşaraq qlobal məkana keçdiyindən, barəsində məxsusi yazı yazılmağı haqq edir...

Ən nəhayət, son illərdə Naxçıvan şəhəri İslam Mədəniyyətinin paytaxtı, Avropa Gənclər paytaxtı missiyalarını da şərəflə yerinə yetirib.

### Böyük Zəfərdə Naxçıvanın şanlı imzası

İki əsrlik münaqişəyə, 32 illik müharibəyə son qoyan Vətən savaşı müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimizin və xalqımızın sarsılmaz vəhdəti nəticəsində qələbə ilə yekunlaşdı. Zəfərin gerçəkləşməsi üçün bütün bölgələrin sakinləri, bütün xalqların təmsilçiləri sıx səfərbər oldular və arzulanan nəticəni əldə etdilər.

Zəfərdə Naxçıvanın da, naxçıvanlıların da əzəmətli imzası, mühüm töhfəsi, böyük qurbanları oldu. Onilliklər boyu rəzil düşmənə qarşı cəsarətlə döyüşən, muxtar respublikanın ərazisini ləyaqətlə qoruyan, Günnüt zəfərinə imza atan Əlahiddə Ümumqoşun Ordu Vətən müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərdi, yeni şərəf missiyasını Qarabağda yazdı. Oktyabrın 10-da Əlahiddə Ümumqoşun Ordunun 300 nəfərdən artıq xüsusi təyinatlısı (sonradan yenidən 100 nəfərdən artıq heyət əlavə edildi) Qarabağa gələrək, ertəsi gündən etibarən Hadrut istiqamətində kəskin zərbələri ilə güclü erməni müdafiəsini yardılar, Şuşayadək rəşadətlə döyüşərək, əsl qəhrəmanlıq örnəyi yaratdılar. Ən çətin döyüşlərdə, alınmaz mövqelərdə, keçilməz sədlərdə aslanlar kimi vuruşdular, gülləleri tükənəndə bıçaqla, süngüləri qırılanda yalın əlləri ilə savaşdılar. Tarix və xalqımız Naxçıvan igidlərinin bu ali, səmimi, böyük Qarabağ sevgisini, Azərbaycan vurğunluğunu əsla unutmayacaq!

Hər gün həm qələbə, həm də şəhid xəbəri alan naxçıvanlıların sevinc və qüssə gözyaşları bir-birinə qarışmışdı. Onlarla şəhidin istisnasız olaraq hər biri Naxçıvan aeroportunda muxtar respublika rəhbərinin öncüllüyündə minlərlə insan tərəfindən qarşılandı, öz şəhərinə, kəndinə, son əbədiyyət məkanına böyük ehtiramla yola salındı. İndi onların ailələri, eləcə də savaşda yaralananlar, müharibə iştirakçıları davamlı qayğı, diqqətlə əhatələniblər, mənzillərlə, avtomobillərlə, işlə təmin olunurlar, sosial ehtiyacları dərhal həllini tapır.

Postsavaş dövründə Ali Baş Komandan tərəfindən Silahlı Qüvvələrdə aparılan yeni islahat mərhələsində Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu yenə də ön sıradadır. Ən müasir silah və texnikalarla təminat, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılıb. Müstəqillik illərində tikilən, yenidən qurulan 306 müxtəlif təyinatlı hərbi obyekt indi daha müasir tələblərə uyğun formalaşdırılır.



### Naxçıvan gerçəklikləri

Naxçıvanda "ASAN xidmət" Mərkəzinin tikintisi də davam etdirilir. Amma Naxçıvanda ucqar dağ kəndindən inzibati şəhər mərkəzinədək xidmətlər zatən uzun illərdir asanlaşdırılıb. Prezidentin tələbləri əsasında, Naxçıvanda bütün dövlət xidməti əhali üçün tam əlçatan, ən əsası isə effektiv nəticə verən fəaliyyətə çevrilib.

Bunlar Naxçıvanda aparılan sistemli islahatların yalnız bir istiqamətidir. Necə ki, müstəqilliyin ilk illərində Heydər Əliyevin şəxsində Naxçıvan Azərbaycanın əsl dövlətçilik məktəbi olaraq dövlət quruculuğunun bütün sahələri üzrə ilk islahatlara başlamışdı, eyni əzm, eyni yol, eyni hədəflə bu islahatlar indi də aparılır və Ulu Öndərin irsinə, Prezidentin siyasətinə mühüm töhfə kimi səciyyələnir.

Bəzən Naxçıvan reallıqlarını ölkə miyqasında təhrif etməyə də cəhd göstərilir. Məsələn, açıq danışaq, Naxçıvanda güclü intizam və nəzarətin olması barədə sosial şəbəkə dedi-qoduları baş alıb gedir...

Əslində, bəlkə də haqlıdırlar, Naxçıvanda güclü nəzarət var! Amma bu nəzarət vətəndaşın özü-özünə, hərəkətinə, davranışına, hüquqi və mənəvi öhdəliklərinə şəxsi nəzarətidir!

Nəzarətin rəsmi təminatçısı olan hüquq-mühafizə orqanlarının isə nə avtomobilləri, nə də ki, özləri küçələrdə gözə dəyir. Sanki muxtar respublikada polis deyiləcək bir kəs yoxdur. Bunun hansısa fəsad yarada biləcəyi ehtimalı ilə maraqlanırıq. Bu məqsədlə də kriminal xronikaya nəzər salırıq. Naxçıvanın nəhayət ki, öndə olmadığı, əksinə, ən geridə qaldığı bir sahəni də tapdıq: cinayətkarlıq! İctimai qaydalar və əhali kriminal durumun sabitliyini artıq rəsmi təsir olmadan, məhz özü tənzimləyir!

Kəskin qarın yağdığı vədədə Naxçıvanı şəhərdən kəndlərədək gəzdik, sübh tezdən kişilər əllərində belləri ilə evlərinin, küçələrinin, iş yerlərinin qarşısında qarı kürüyürdülər. Tam könüllü! Amma əlbəttə ki, 20 il öncə bu qaydalar könüllü icra edilmirdi, necə ki, Azərbaycanın dörd bir yanında bu ənənəni hələ də yaratmaq mümkün deyil! Yaxud yas və toy mərasimləri məsələsi, hər şənbə keçirilən iməciliklər... Naxçıvanda bunun kimi onlarla prosesin uğurlu həllini camaat özü tapıb və onu qətiyyətlə də qoruyurlar!

Minillik tarixi olan Naxçıvan, 98 yaşlı muxtar respublika böyük sürətlə, müasir zövqlə, qətiyyətli təşəbbüskarlıq və səmimi təəssübkeşliklə, düzgün istiqamətdə hər gün yeniləşir, uğuruna uğur qatır.

Yeni Naxçıvan indi bütün vüsəti, cəlalı ilə tarixin ən qüdrətli Azərbaycanının və Prezident İlham Əliyevin möhtəşəm əsərlərindən birinə çevrilib!

Uğurların əslində kiçik qismindən bəhs etdik. Onların sayı, miqyası, əhatəsi, təsiri o qədər böyük və genişdir ki, tam halında qəzet səhifəsində ümumiləşdirmək mümkünsüzdür. Növbəti saylarımızda Naxçıvandakı ordu quruculuğundan, ixrac potensialından, elm, təhsil, mədəniyyət, mətbuat mənzərəsindən, dağ kəndlərindən, turizm potensialından və digər mövzulardan silsilə məqalələrimiz dərc olunacaq...

### Naxçıvanın uğur formulu

Səfərdən qayıtdıqdan sonra qəzetimizin dostu AMEA-nın vitse-prezidenti, həm də naxçıvanlıların ölkə parlamentində təmsilçisi olan İsa Həbibbəyli ilə təəssüratlarımızı bölüşürdük. "Muxtar respublikanın uğur formulunun əsl zəmini nədir" sualıma akademikin cavabı konkret idi: "Prezident İlham Əliyevin regionun geosiyasi vəziyyətini, xüsusi çətinliklərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasına daim böyük diqqət və qayğı göstərməsi buradakı inkişafı ardıcıl olaraq stimullaşdırır. Naxçıvandakı böyük və hərtərəfli inkişaf həm də yorulmaz fəaliyyətin və məqsədyönlü idarəetmənin qanunauyğun nəticəsidir. Muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbovun Azərbaycan dövlətçiliyində xüsusi tarixi hadisə olan Heydər Əliyev - İlham Əliyev dövlətçilik siyasətinə sədaqəti, mükəmməl idarəetmə təcrübəsinə malik olması, düşünülmüş quruculuq siyasəti və əzmi qədim diyarın müasir inkişafında mühüm rol oynayır. Eyni zamanda Naxçıvan əhalisinin dövlətçilik və quruculuq proseslərində yorulmadan fəal iştirakı paralel şəkildə davam etdirməsi də Naxçıvanın yüksəlişini təmin edir".

Həqiqətən də Azərbaycan Prezidentinin qayğısı - muxtar respublika rəhbərliyinin uğurlu fəaliyyəti - əhalinin zəhmətkeş fədakarlığı, məhz bu üç faktorun vəhdəti Yeni Naxçıvanın təməlidir!

Həm də inkişafın Naxçıvan modelinin davamlı təminatçısıdır!

İnkişafa görə Azərbaycanda lider, Qafqazda rekordçu olan Naxçıvan bütün nailiyyətləri, yüksəliş göstəriciləri ilə əslində, Heydər Əliyevin irsinə, əbədiyaşar xatirəsinə ucalan möhtəşəm monumental abidədir!

Naxçıvan həyata keçirdiyi islahatların səmərəliliyinə, dövlət siyasətinin uğurlu gedişinə görə həm də İlham Əliyev idarəçilik kursuna və siyasətinə mükəmməl töhfə nümunəsidir!

Əsas odur ki, bu nümunəni hamı görür, dəyərləndirir, ən ali qiyməti isə Lider verir. Prezident İlham Əliyevin Naxçıvan ictimaiyyətinə xitabən söylədiyi bu fikirlər yüksək dəyərdir, ancaq ən əsası USTAD DƏRSİdir: *"Siz, Ali Məclisin Sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Bu, Naxçıvanda var və məni çox sevindirir".*

*Həqiqətən də, fəaliyyətdə uğuru əldə etməyin, xalqa ləyaqətli xidmətin sadə yolu var: Heydər Əliyev örnəyinə, İlham Əliyev nümunəsinə tapınmaq, istinad etmək!..*

*İlham Əliyevin özünün idarə etdiyi avtomobillə Zəngəzur dəhlizindən Naxçıvana gələcəyi günə isə çox az qalıb...*

*Bu, Naxçıvanın yeni dirçəliş mərhələsinin, yeni inkişaf salnaməsinin başlanğıcı olacaq!*

**İxtiyar HÜSEYNLİ,**
***"Azərbaycan"***

*Bakı-Naxçıvan-Bakı*






# Əsl DOST

## Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəzlərdə ötən il 410 mindən çox şəxsə xidmət göstərilib

Əvvəli 1-ci səh.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları həssas qrupların sosial təminatı və sosial ödənişlərin artırılması, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkili və digər müvafiq fəaliyyət sahələrində ardıcıl və məqsədəuyğun işlər görülüb. Həmçinin əhalinin daha rahat şəkildə dövlət xidmətlərindən yararlanması üçün milli brendlər yaradılıb ki, bu gün bəzi ölkələr də Azərbaycanın bu təcrübəsindən yararlanmaqdadır. Onlardan biri də DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyidir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü və Prezidentin 2018-ci ildə imzaladığı fərmanla Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan DOST Agentliyi dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir.

Dövlət başçısı bildirir ki, yürütdüyü sosial siyasət DOST mərkəzlərində öz əksini tapır. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət edəcək.

Ümumiyyətlə, İlham Əliyevin sosial islahatlar proqramının əsas hədəfi dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin təmin edilməsidir.

### 651 min 155 vətəndaşa məmnunluq səviyyəsi 98,2 faiz olan xidmət

Vətəndaş maraqlarına xidmət edən, onun müasir sosial trendlərə çevik uyğunlaşmasına hesablanan şəffaflıq, sosial ədalət və yeni dövrün çağırışlarından irəli gələrək xidmət sektorunda qabaqcıl innovasiyaların tətbiqi İlham Əliyevin sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir və əhali tərəfindən rəğbətlə qarşılanır.

Bu gün artıq ölkədə beş DOST mərkəzi fəaliyyət göstərir. 2021-ci ildə bu mərkəzlərdə 410 min 575, ümumilikdə ötən dövrdə isə 651 min 155 vətəndaşa xidmət göstərilib. Həmçinin mərkəzlər tərəfindən 2021-ci ildə əlavə olaraq 5627 elektron və ümumilikdə isə fəaliyyət dövründə 38, 328 elektron müraciətə baxılıb. Çağrı mərkəzinə hesabat dövründə 916,328 zəng daxil olub ki, onların 899, 354-ü (98,2 faizi) cavablandırılıb. 2021-ci il ərzində 72,125 nəfərə agentliyin əməkdaşları, DOST Könüllüləri tərəfindən sosial xidmət göstərilib. Məhz bunun nəticəsidir ki, DOST mərkəzlərində göstərilən xidmətlərdən vətəndaşların məmnunluq səviyyəsi 98,2 faizdir.

Bu mərkəzlərdə məşğulluq, əmək münasibətləri, əmək pensiyası və sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, əlillik və sağlamlıq imkanlarının məhdudluğu, sosial sığorta və sosial xidmətlər istiqamətində, həmçinin bank və notariat xidmətləri kimi funksional yardımçı xidmətlər göstərilir.

Bütün Bakı şəhəri və Abşeron rayonu DOST şəbəkəsi ilə əhatə olunub. Bakıdakı 4 DOST mərkəzinə müraciət üçün qeydiyyat prinsipi də artıq ötən il aradan qaldırılıb, paytaxtın hansı rayonunda qeydiyyatda olmasından asılı olmayaraq, Bakı sakinləri istənilən DOST mərkəzinə müraciət edə bilərlər.

Dövlət başçısının bu günlərdə imzaladığı yeni fərmanla DOST mərkəzləri xidmətlərinin siyahısına daha bir xidmət - dövlət icbari şəxsi sığorta ödənişlərinin təyin edilməsi xidməti də əlavə edilib. Bununla da ümumilikdə DOST xidmətlərinin sayı 2019-cu ilin may ayından 30 faiz genişlənərək 156-ya çatıb.

### Şuşada da DOST mərkəzi açılacaq

Agentliyin missiyası ölkə əhalisinin dövlət tərəfindən təklif edilən əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə xidmət mərkəzləri şəbəkəsi vasitəsilə müasir, operativ və elektron xidmətlərin tətbiqi ilə rahat çıxışını təmin etməkdir.

Hazırda dünya təcrübəsində oxşar layihələr olsa da, DOST mərkəzləri əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə 156 xidmətin "bir pəncərə"dən təqdim edilməsinə imkan verən, əhatə dairəsi geniş olan, innovativ yenilikləri özündə birləşdirən nadir layihədir. DOST layihəsi artıq özünün dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırıb.

DOST mərkəzləri şəbəkəsinin qısa müddətdə ölkəmizin bütün regionlarını, o cümlədən işğaldan azad olunmuş bölgələri də əhatə etməsi Azərbaycan dövlətinin sosial təminat sahəsində təkmilləşmədə nə qədər maraqlı olduğunu göstərir.

İşğaldan azad edilmiş ərazilərimizdə, Qarabağın tacı Şuşamızda da DOST mərkəzinin yaradılması nəzərdə tutulur ki, bu da İlham Əliyevin bu ərazidə soydaşlarımızın ən yüksək şəraitlə təmin edilməsi çağırışına əsaslanır.

Eyni zamanda Bərdə, Quba, Sabirabad, Sumqayıt, Gəncə, Masallı şəhər və rayonlarında da DOST mərkəzlərinin, həmçinin Bakıda daha bir mərkəzin açılması üçün layihələndirmə, təmir-tikinti işləri aparılır.

Ümumilikdə isə 2025-ci ilədək Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub.

### Sosial təminat sahəsində böyük dönüş yaradan milli brend

Agentlik haqqında danışarkən İlham Əliyev vurğulayıb ki, DOST mərkəzlərinin yaradılması çox gözəl, əlamətdar hadisədir. Bu mərkəzlər sosial təminat sahəsində böyük dönüş yaradıb, innovasiyaların və müasir xidmətlərin göstərilməsi üçün çox mühüm alət olub: "DOST mərkəzlərinin yaradılması bizim sosial siyasətimizin mahiyyətini göstərir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Azərbaycan vətəndaşının sosial təminatı, rifah halı və rahatlığı bizim üçün prioritet məsələdir. Təsadüfi deyil ki, son illərdə bu sahədə çox böyük işlər görülüb. Həm DOST, həm də "ASAN xidmət" mərkəzləri bizim intellektual məhsulumuzdur. İndi "ASAN xidmət" öz intellektual məhsulunu ixrac edir, artıq bir neçə ölkədə bu layihələr icra olunur. Ümid edirəm ki, gələcəkdə DOST xidmətinin də fəaliyyəti başqa ölkələrdə maraq doğuracaq və təcrübə mübadiləsi üçün bizə müraciətlər daxil olacaq".

Əlbəttə, bu bir daha təsdiq edir ki, İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın diqqəti, qayğısı nəticəsində əhalinin sosial-məişət şəraiti yaxşılaşdırılır, yeni xidmətlərin yaradılması ildən-ilə genişlənir. Bu da bir daha göstərir ki, İlham Əliyev qlobal böhran şəraitində də əhalinin sosial rifah halının yüksəldilməsi - vətəndaşların əməkhaqları və pensiya təminatının yaxşılaşdırılması, işsizlik probleminin aradan qaldırılması, paytaxtda və bölgələrdə müasir sosial infrastrukurun yaradılması prioritet olaraq qalır və bu siyasət ardıcıl və davamlıdır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Sumqayıtda Qadın Resurs Mərkəzi açılıb

Yanvarın 28-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi (AQUPDK), Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) təşkilatçılığı ilə Sumqayıtda yeni Qadın Resurs Mərkəzi açılıb.



AZƏRTAC xəbər verir ki, Mərkəz qadınların səlahiyyətləndirilməsinə və onların iqtisadi dayanıqlılığının artırılmasına xidmət edəcək, eləcə də gender əsaslı zorakılığa məruz qalmış qadınlara dəstək göstərəcək.

Sumqayıt Gənclər Evində keçirilən açılış mərasimində Milli Məclisin deputatları Hicran Hüseynova, Müşviq Məmmədli, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəsmiləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

AQUPDK-nın sədri Bahar Muradova açılış mərasimində çıxış edərək deyib: "Qadın Resurs mərkəzləri qadınların iqtisadi imkanlardan yararlanmasına, sahibkarlıq fəaliyyətinə yönəlməsinə və özünüinkişafa böyük töhfə verir. Biz qadınların dəstəklənməsi və iqtisadi səlahiyyətləndirilməsi istiqamətində fəaliyyətlərimizi davam etdirəcəyik".

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova layihənin əhəmiyyətindən və rolundan danışıb, aidiyyəti qurumların mərkəzin səmərəli fəaliyyəti üçün lazımi dəstək göstərməyə hazır olduğunu bildirib.

USAID-in missiya direktoru Caydev Sinqxin sözlərinə görə, USAID Azərbaycan qadınlarına Qadın Resurs Mərkəzində iştirak edə biləcəkləri təlim vasitəsilə mühüm bacarıqları öyrənmək və iqtisadi cəhətdən daha möhkəm olmaq səylərində dəstək verməkdən qürur duyur. "BMTİP və Dövlət Komitəsindəki tərəfdaşlarımız sayəsində biz həm də məişət zorakılığı qurbanlarının lazımi yardım əldə etmək məqsədilə müraciət edə biləcəkləri təhlükəsiz məkanın olduğunu bilməkdən çox məmnunuq", - deyə o, əlavə edib.

BMTİP-nin rezident nümayəndəsinin müavini Çaru Bist isə deyib ki, AQUPDK-nın və USAID-in əvəzsiz dəstəyi ilə Azərbaycan qadınlarının dəstək ala və peşəkar şəkildə inkişaf edə biləcəyi daha bir təhlükəsiz məkanın yaradılmasına kömək etməkdən məmnundur: "Qadınların və qızların inkişafına sərmayə qoymaq ailələrə və cəmiyyətlərə çoxsaylı fayda gətirir. Qadınların səlahiyyətləndirilməsinin inkişaf səylərinin mərkəzində saxlanılması həm də insanlar və planetimiz üçün 2030-cu il gündəliyinin və dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsi üçün ən yaxşı yollardan biridir".

Sumqayıtda yerləşən Qadın Resurs Mərkəzi şəhər ərazisində qurulan ilk, USAID-in 2016-cı ildən bəri maliyyələşdirdiyi "Sahibkarlığa və Məşğulluğa İqtisadi Dəstək" layihəsi çərçivəsində açılan dördüncü mərkəzdir. Beləcə, USAID və BMTİP-nin daha öncə Masallı, Zaqatala və Xaçmazda açdığı mərkəzlər sırasına Sumqayıt da daxil oldu.

2011-ci ildən bəri USAID də daxil olmaqla bir sıra beynəlxalq donorun maliyyə dəstəyi ilə Dövlət komitəsi və BMTİP tərəfindən Azərbaycanın müxtəlif bölgələrində 14 Qadın Resurs Mərkəzi yaradılıb. Ötən 11 ildə bu mərkəzlər qadınların iqtisadi cəhətdən inkişafı üçün perspektivlər yaradan məkan rolunu oynayıb. Bu günədək 6200-dən çox qadın üçün gender bərabərliyi və iqtisadi hüquqlar, həmçinin biznesin inkişafı, peşə kursları, mühasibat uçotu, maliyyə savadlılığı və kompüter elmləri üzrə ödənişsiz təlimlər keçirilib və 400-dən çox biznes qurulub. 2020-ci ildən etibarən USAID-in maliyyə dəstəyi ilə bu mərkəzlərdən 9-u gender əsaslı və ya məişət zorakılığından əziyyət çəkmiş qadınlara hüquqi və psixoloji yardım təklif edir.



# Çinarlar diyarı Gəncə indi də gül-çiçəyə bürünür

Gəncə Şəhər İcra Hakimiyyətinin Mənzil Kommunal Təsərrüfat İstehsalat Birliyi (MKTİB) tərəfindən ağacların budanması, quru budaqların kəsilməsi, parklardakı, yol kənarlarındakı dekorativ kol bitkilərinin dizaynı, yeni ağac, kol və gül-çiçəklərin əkilməsi, qazonların biçilməsi və s. kimi işlər qış aylarında da davam edir.

Üstəlik, MKTİB-nin Yaşıllaşdırma şöbəsi daha bir uğurlu işə də başlamışdır. Belə ki, əvvəllər bitkilər xaricdən gətirilirdisə, arıq buna ehtiyac yoxdur. Birliyin yaşıllaşdırma şöbəsi bu bitkiləri öz təsərrüfatında yetişdirir. Gəncəçayın sahilində, təxminən 15 hektar sahəni əhatə edən bağçılıq təsərrüfatında yetişdirilən on minlərlə ağac və dekorativ gül kolları şəhərin müxtəlif ərazilərinə köçürülür. Hazırda təsərrüfatda yaz ayları üçün geniş hazırlıq işləri gedir. Bir neçə aydan sonra burada yetişdirilən kolların şəhərin müxtəlif ərazilərinə köçürülməsinə başlanacaq.

Ümumiyyətlə, son illər Gəncənin yaşıllaşdırılmasına və abadlaşdırılmasına xüsusi diqqət yetirilir. Budəfəki abadlıq işləri şəhərin Ş.İ Xətai prospektində, Məhsəti qəsəbəsinin ara küçələrində və digər ərazilərdə həyata keçirilib. Adıçəkilən ərazilər MKTİB-nin canlı qüvvəsi və texnikası vasitəsilə məişət tullantılarından, alaq otlarından və toz-torpaqda təmizlənib. Bəzi yerlərdə külək nəticəsində sınan ağac budaqlarının qırıntıları da yığılaraq ərazidən çıxarılıb.

Yaz əkinlərinə hazırlığın vəziyyətini öyrənmək üçün bu günlər şəhər rəhbərliyi bağçılıq təsərrüfatında olmuşdur. Məlumat verilmişdir ki, təsərrüfatın istixanalarında fərqli növdə qızılgüllər, çobanyastığı və bənövşələr, habelə ətirşah, pirimula, kazaniya, maqnoliya, çinerariya kimi güllər, bağçılıq təsərrüfatının açıq sahəsində isə çinar, sərv, Eldar şamı, tuya və digər ağaclar yetişdirilir. Hazırda gülçülük sahəsində 30 minə yaxın Xan çinarı, 50 minə yaxın Eldar şamı, 40 minə yaxın tuya, 200 minə yaxın həmişəyaşıl kollar becərilir. Bitkilərə lazımi qaydada qulluq göstərilməsi üçün burada 50 tonluq 2 su çəni, böyük hovuz və əlavə yardımçı tikililər də mövcuddur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***



# "Omikron" "Delta"nı sürətlə üstələyir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adanom Gebreyesus dünyanın pandemiyanın kritik mərhələsində olduğunu söyləsə də, onun bu il başa çata biləcəyinin mümkünlüyünü də açıqlayıb.

Pandemiyanın kəskin fazasını sona çatdırmaq üçün bütün instrumentlərin olduğunu nəzərə çatdıran Gebreyesus dövlətləri bu imkanlardan ədalətli və şüurlu şəkildə istifadə etməyə çağıraraq qeyd edib ki, əgər kompleks addımlar atılarsa, pandemiya bu il bitəcək. ÜST rəhbərinin belə xoş xəbər verməsinə baxmayaraq, ölkələrdəki mövcud vəziyyət bunun real olacağını şübhə altına salır. Son günlər ərzində Azərbaycan da daxil olmaqla, bütün dünya ölkələrində COVID-19-a yoluxma halları artır. Yoluxma ilə paralel şəkildə bəzi bölgələrdə virusdan ölüm halları da çoxalır.

### Yeni ştam bütün ölkələrdə aşkarlanıb

"Omikron"un aşkarlanmasından sonra onun altvariantı olan "Gizli Omikron"un ortaya çıxması və üstəlik, onun "Omikron"un klassik variantından daha çox yoluxucu olması və bir neçə ölkədə, o cümlədən Danimarka, Böyük Britaniya, Norveç, Hindistan, Filippin və Cənubi Afrikada, habelə ABŞ-ın Kaliforniya, Vaşinqton, Nyu York, Texas, Yuta, Nyu-Meksiko və digər ştatlarında qeydə alınması onu göstərir ki, "SARS-CoV-2" virusu hələ müxtəlif mutasiyalar altında qeyri-müəyyən müddətdə bizimlə olacaq.

ÜST-ün yoluxucu xəstəliklər üzrə epidemioloqu və COVID-19 üzrə texniki qrupun rəhbəri Maria Van Kerkhove də bildirib ki, "Omikron" artıq bütün dünyada "Delta" variantını sürətlə üstələyərək dominant hala gəlir. Lakin o, bəzi ölkələrdə "Omikron"un "Delta"nı ötməsinin müəyyən qədər vaxt apara biləcəyini, bunun həmin ölkələrdə "Delta" variantının dövriyyə səviyyəsindən asılı olduğunu söyləyib: "İndi "Omikron", demək olar ki, bütün ölkələrdə aşkarlanıb. Çünki sürət baxımından "Delta"nı tez ötüb keçir".

Maria Van Kerkhove bunu da əlavə edib ki, "Omikron"un "Delta"dan daha yüngül xəstəliyə səbəb olduğu barədə bəzi məlumatlar olsa da, əslində, belə deyil. Çünki insanlar hələ də "Omikron"a görə xəstəxanaya yerləşdirilirlər.

Moskva Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunun direktor müavini Tatyana Rujentsova isə "Omikron"dan sonra formalaşan immunitetin orqanizmi koronavirusun digər ştamlarından qoruya biləcəyini də düşünür. O, insanlara özlərini yalnız peyvənd və revaksinasiya vasitəsilə qorumalarını tövsiyə edir.

Cons Hopkins Universitetinin professoru Stuart Ray deyib ki, peyvəndlər klassik "Omikron" kimi, onun BA.2 subvariantına qarşı da təsirlidir.

ABŞ-ın Oklahoma Universitetinin Hudson İctimai Xalq Sağlamlığı Kollecinin Səhiyyə İdarəsi və Siyasəti Departamentinin sədri Dale Bratsler bildirib ki, əvvəllər olduğu kimi, indi də əhalinin müəyyən hissəsi BA.2 subvariantına qarşı həssas olacaq: "Həmişə narahat olduğumuz qruplar - yaşı 65-i keçənlər, immuniteti zəif olanlar və ya COVID-ə yoluxma zamanı ağır fəsadların yarana biləcəyi mümkün olan insanlar yüksək risk kateqoriyasına daxildirlər. Buna görə də peyvəndlənməni təbliğ etmək və cəmiyyətdəki həssas insanları qorumaq üçün maskalar taxmaq vacibdir".

ABŞ-ın Çikaqo Xalq Sağlamlığı Departamentinin komissarı Allison Arvady isə "Omikron"un əsas simptomunun boğaz ağrısı olduğunu nəzərə çatdırıb: "Boğaz ağrınız varsa, özünüzü COVID xəstəsi hesab edin və test nəticəsini gözləmədən təcrid olunun. Mövcud statistik məlumatlar da boğaz ağrısının daha çox koronavirusa işarə etdiyini göstərir".

### Əhalinin müəyyən hissəsi "Gizli Omikron"a qarşı daha həssas olacaq

Ümumdünya Səhiyyə Təşkilatı BA.2-ni hələ ki "narahatlıq doğuran variant" kimi təsnif etməyib. Lakin qurum bildirib ki, "Gizli Omikron"un xüsusiyyətləri, o cümlədən "immunitetdən qaçma bacarığı" müstəqil olaraq öyrənilməlidir.

BA.2 ilə bağlı halların artdığı Danimarkada ilkin tədqiqatlar təsdiqləyib ki, subvariant bu günə qədər məlum olan ən yoluxucu variantdan - "Omikron"dan da yoluxucu ola bilər. Danimarkanın səhiyyə naziri Magnus Heunicke artıq BA.2 subvariantının ölkədə dominant olduğunu söyləyib: "Bu cür sürətli artım BA.2-nin orijinal "Omikron" ştamından daha yoluxucu olduğunu göstərə bilər. Bununla bağlı daha çox araşdırmanın aparılmasına ehtiyac var".

Dünyada getdikcə daha çox yayılan "Omikron"la bağlı aparılan tədqiqatlar əvvəllər virusa yoluxan insanların da bu ştama yoluxma ehtimalının olduğunu təsdiqləyib. İngilis alimləri bu ştama yoluxanların böyük əksəriyyətinin əvvəllər COVID-19 xəstəliyi keçirmiş insanlar olduğunu üzə çıxarıb. Böyük Britaniyada "Omikron"a yoluxanların üçdəikisi əvvəllər COVID-19 xəstəliyinə tutulmuş insanlar olublar. Bu şəxslər, əsasən, tibb işçiləri, uşaqları olan ailələrdir.

### Yeni pandemiya təhlükəsi var?

ÜST Cənubi Afrika Respublikasında yarasalarda "NeoCoV" adlı yeni koronavirusun aşkarlandığını açıqlayıb. Təşkilat bu virusun insanlar üçün təhlükəsinin hələ öyrənilmədiyini, bunun üzə çıxarılması üçün əlavə araşdırmanın tələb olunacağını bildirib.

Çinin Uhan Universitetinin bioloqlarının fikrincə, virus insanlar arasında yayıla bilər. İnsanlarla vəhşi heyvanlar arasında təmas daha tez-tez baş verərsə, koronavirusla əlaqəli yeni pandemiyalar başlaya bilər.

Hələlik isə alimlər diqqətlərini daha çox "Omikron"un gizli variantının üzərinə cəmləyiblər. Tədqiqatçılar bu variantın təhlükəli olub-olmadığını araşdırmağa çalışırlar. Rəsmi olaraq BA.2 kimi tanınan "Gizli Omikron"u klassik "Omikron"dan fərqləndirən kiçik əlamətlər var, lakin bunlar həmin variantın tamamilə yeni nəsil hesab edilməsi üçün kifayət deyil. "Onları eyni ailənin qardaşları kimi təqdim edə bilərik", - deyən ABŞ-ın Duke Universitetinin Tibb fakültəsinin dosenti, yoluxucu xəstəliklər üzrə mütəxəssis Cameron Volfe də bəzi incə fərqlər olsa da, hər iki variantın genetikasının əksəriyyətinin eyni olduğunu söyləyib.

Vulfun fikrincə, BA.2 altvariantı, çox güman ki, "Omikron"un bütün dünyada geniş yayılması ilə təkamül edib. Virus yayıldıqca və çoxaldıqca, davranışını dəyişə bilərək yeni mutasiyalar əmələ gətirə bilir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***







# Kimdir günahkar?!

Əvvəli 1-ci səh.

Bu həm də onlara, düşündüklərinin əksi ilə qarşılaşdıqda dərhal qınaq və hətta hücum edəcəkləri obyekti də asan və dəqiq müəyyənləşdirməyə imkan verir: günahkar məktəbdir, müəllimdir. Yəni valideyn rahatdır, məhz müəllimin onun övladına təhsillə bərabər tərbiyə verməyə borclu olduğunu düşünür və bu prosesi kənardan izləyir... Təhsil prosesində müəllim, şagird, valideyn üçlüyünün birgə fəaliyyətinin mühümlüyünü isə gözardı edir...

Nəticədə isə ertəsi gün hansısa videokadrlardan müəllimin onun övladına fiziki şiddət tətbiq etdiyini gördükdə, əvvəlcə özü o müəllimin üstünə gedir, daha sonra prosesə məktəb rəhbərliyi, əlaqədar qurumlar, hüquq-mühafizə orqanları qarışır. Sosial şəbəkələr vasitəsilə formalaşan ictimai qınaq dağ kimi böyüyür, nəhayət, müəllim töhmət alır, hamı rahatlaşır, sakitləşir, məsələ həll olunmuş sayılır...

Əslində isə, məktəblərdən yayılan bu cür görüntülərlə bağlı seyr etdiklərimiz təhsil sistemimizdə baş verən proseslərin nəticələrini açıb ortaya qoyur. Səbəblər isə hər zaman gözardı edilir...

Elə son məlum orta məktəbdə baş verən hadisəni, şagirdlərin sinif otağında tədris prosesinə uyğun olmayan davranışının əks olunduğu videogörüntüləri izlədikdə səbəblər də gün işığı kimi ortaya çıxır. Elə buna görədir ki, o kadrları seyr edən əksər kəsim insanlar müəllimi qınaya bilmirlər. Baxmayaraq ki, həmin videogörüntü ilə bağlı məktəb rəhbərliyi tərəfindən araşdırma aparılıb, dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət də verilib.

Amma baxın, bu görüntülər müəllim nüfuzunun heç edildiyinin əyani sübutu deyilmi?!

Bu kadrlarda əks olunanlar müəllim peşəsinə hörmətin ayaqlar altına atıldığının təcəssümü deyilmi?!

Heç düşündünüzmü ki, həmin müəllim o şagirdin davranışlarını niyə görməzdən gəlir, heç nə olmayıbmış kimi, başını aşağı salıb, bir növ dəftər, qələminin arxasına sığınıb?

Çünki o müəllim bilir ki, azacıq da olsa həmin şagirdə səsini qaldırsa, valideyn onun dünyasını başına yıxacaq, ictimaiyyət onu möhkəm qınayacaq, rəhbərlik töhmət verəcək, kim bilir, bəlkə də, daha irəli gedib işdən kənarlaşdıracaq...

Danılmaz reallıqdır ki, bu gün müəllimlərimiz məktəblərdə qarşılaşdıqları bu cür çətinliklərlə baş-başa, köməksiz vəziyyətdədirlər. Elə bu son hadisə də bir daha onu göstərdi. Göstərdi ki, şagirdin tərbiyəli davranmamasına görə də məhz müəllim cəzalandırılır.

Bu ədalətsizlikdir...

Müəllimlik şərəfli, eyni zamanda çətin və məsuliyyətli peşədir. Bu peşə sahiblərinin ən ali vəzifəsi cəmiyyət üçün şəxsiyyət, dövlət üçün layiqli vətəndaş yetişdirməkdir...

Təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev də deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

Amma gün keçdikcə müəllim adının dəyərdən düşürüldüyünün, nüfuzunun aşağı salındığının şahidi oluruq. İndi adi sözlərlə ifadə etdiyimiz bu vəziyyət isə cəmiyyətimizi uçuruma sürükləyir.

Müəllim şəxsiyyətinə bu cür ucuz münasibət olmamalıdır. Necə ki çox gec deyil, Təhsil Nazirliyi, digər aidiyyəti qurumlar, həm də elə cəmiyyətimiz bu, sözün əsl mənasında, fədakar insanlara sahib çıxmalı, hüquqlarını müdafiə etməlidirlər.

Təbii ki, ortaya çıxan problemləri doğuran səbəblər çox olur, yaranan situasiyalardan asılı olaraq, məktəblərdən yayılan konkret videolara görə müəllim də, şagird də, məktəb rəhbərliyi də, valideyn də, hər biri günahkar ola bilər. Amma problemin həll yolu müəllimə töhmət verilməklə bitə bilməz. Bu məsələlərin birdəfəlik ortadan qaldırılması üçün aidiyyəti qurumlar tərəfindən mütəxəssilər də cəlb edilməklə problemlərin səbəblərinin hərtərəfli araşdırılması, alınan nəticələrə uyğun tədbirlər görülməsi mütləqdir.

Eyni zamanda mütəxəssislərin də bildirdiyi kimi, bununla bağlı qanunvericilik təkmilləşdirilməli, təhsil qanunvericiliyinə müəllimlərlə yanaşı, şagird və valideynlərin məsuliyyətini müəyyən edən maddələr də salınmalıdır.

Azərbaycanın dəyərli müəllimlərini qorumaq, onlara mənəvi dəstək durmaq, müəllim nüfuzunu layiq olduğu uca zirvəyə qaldırmaq bu gün hər birimizin qarşısında duran ən ümdə vəzifələrdəndir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ





## İqtisadi yüksəliş əhalinin sosial güvənliyinin etibarlı təminatına xidmət edir

Ölkəmiz yenidən müstəqilliyə qovuşduqdan sonra əhalinin sosial rifahının yaxşılaşdırılması dövlətin daim diqqət mərkəzində olub. İqtisadiyyatımız inkişaf etdikcə maliyyə imkanlarımız da artıb. Bu da dövlətə sosial sahədə islahatlar aparmağa, insanların həyat şəraitini daha da yaxşılaşdırmağa imkan verib.

Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan dövlətinin apardığı siyasətin mərkəzində vətəndaşların mənafeyi dayanır. Dövlət başçısının söylədikləri real olaraq insanların həyatında öz əksini tapır. Hər il dövlət büdcəsində sosial sahəyə ayrılan vəsaitin məbləği artır. Cari ilin dövlət büdcəsinin 46,4 faizi sosial sahəyə ayrılıb. Bu da ötən ildəkindən 13,5 faiz çoxdur.

Prezidentin ötən ilin 16 oktyabr tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı sosial sahədə aparılan islahatların genişləndirilməsinə yeni imkanlar yaratdı. Beləliklə, keçən ilin dekabr ayında imzalanan yeni fərman və sərəncamlarla ölkəmizdə sosial ödənişlərin artırılması istiqamətində islahatların yeni mərhələsinə start verildi. Bu sənədlər vətəndaşların sosial rifahının daha da yüksəldilməsinə yönəldilərək əhalinin geniş təbəqəsini, o cümlədən həssas kateqoriyadan olan bütün insanları əhatə edir.

Prezident tərəfindən qəbul edilən sosial paket 2,1 milyon insanın sosial rifahının yaxşılaşdırılmasına imkan verib. Bunun üçün dövlət tərəfindən 1,5 milyard manat vəsait ayrılması nəzərdə tutulub. Beləliklə, cari il yanvarın 1-dən minimum aylıq əməkhaqqı 250 manatdan 300 manata çatdırılıb. Qeyd edək ki, son üç ildə təkcə minimum əməkhaqqı 2,3 dəfə artırılıb.

Dövlət təhsil işçilərinin sosial müdafiəsinə xüsusi diqqət yetirir. Son bir neçə ildə müəllimlərin maaşları artırılıb. Əvvəllər çox aşağı əməkhaqqı alan təhsil işçiləri hazırda büdcədən yüksək maaş alan kateqoriyaya daxil olub. Cari ildə də onların əməkhaqları 20-40 faiz arasında artırılıb. Bununla yanaşı, ötən ildə işləməyən pensiyaçı elmlər və fəlsəfə doktorları üçün təqaüd təsis olunub. Bu il həmin kateqoriyadan olan insanların təqaüdləri də artırılıb. Belə ki, elmlər doktorları üçün təqaüd 200 manatdan 300 manata, fəlsəfə doktorları üçün isə 120 manatdan 200 manata yüksəlib. Fəxri adlar daşıyan, dövlət qarşısında xidmətləri olan, "Xalq", və "Əməkdar" təqaüdü alan şəxslər də diqqətdən kənarda qalmayıb. "Xalq" fəxri adını daşıyanların təqaüdü artırılaraq 150 manatdan 180 manata, "Əməkdar" fəxri adları daşıyanların təqaüdləri isə 100 manatdan 120 manata çatdırılıb.

Əməkhaqqı və digər sosial ödənişlərin dinamikasına nəzər yetirdikdə dövlətin apardığı sosial siyasətin mənzərəsi aydın görünür. Bu sahədə ödənişlər üçün 2019-cu ildə illik əlavə üzrə 4 milyard, 2020-ci ildə 600 milyon, cari ildə isə 1,5 milyard manat, ümumilikdə isə son üç ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması üçün yalnız dövlət vəsaitləri hesabına əlavə olaraq 6 milyard manat vəsait ayrılıb.

Sağlamlığını itirən ölkə vətəndaşlarına qayğıkeşlik də diqqət mərkəzindədir. Aparılan sosial islahatlar sayəsində onların müavinətləri mütəmadi olaraq artırılır. Cari ildə də bu kateqoriyadan olan vətəndaşlar dövlət tərəfindən unudulmayıb, onların təqaüdləri dərəcələrə görə artırılıb. Beləliklə, əlilliyi olan şəxslərin müavinətləri ötən üç illə müqayisədə I dərəcə üzrə 2,7, II dərəcə üzrə 3, III dərəcə üzrə isə 2,3 dəfə çoxalıb. Sağlamlıq imkanları məhdud uşaqlara müavinət 150 manatdan 200 manata, onlara qulluğa görə təqaüd 50 manatdan 80 manata çatdırılıb. Ümumilikdə isə onlara verilən aylıq sosial ödənişin həcmi keçən üç illə müqayisədə 3,4 dəfə artıb.

Dövlət əhalinin sosial müdafiəsini təmin etmək məqsədilə məşğulluq proqramlarının icrasına da xüsusi önəm verir. Çünki işləmək imkanı olan vətəndaşın sosial müdafiəsinin etibarlı və səmərəli forması məşğulluğun təmin edilməsidir. Öz təsərrüfatı olan hər bir vətəndaş dövlətdən hər hansı bir ödəniş almadan ailəsini dolandırmaq imkanı qazanır. Üstəlik, onların istehsal etdiyi məhsul ölkənin iqtisadi gücünün artmasına dəstək verir. Bu məqsədlə ötən il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyi tərəfindən 77 min 640 nəfər işsiz və işaxtaran şəxs işlə təmin edilib, həmçinin 16 min 232 şəxs özünüməşğulluq proqramına cəlb olunub, onların seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təminatı işləri aparılıb. Bu proqramın icrasına başlanılan 2017-ci illə müqayisədə ötən ildə görülən işlərin həcmi 13,8 dəfə çoxdur.

Nazirlik eyni zamanda beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Məqsəd bu proqrama daha çox ölkə vətəndaşının cəlb edilməsi ilə onların məşğulluğunun təmin olunmasıdır. Nazirlik və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi iştirakçılarının aktivlə təminatına da dəstək verilməsinə başlanılıb. Bu layihənin icrası ölkədə özünüməşğulluq proqramının əhatə dairəsini daha da genişləndirəcək. Belə ki, bu proqram 22 min işsiz şəxsin özünüməşğulluq formasında kiçik biznes qurmasına dəstək olacaq. Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən əməkhaqqının birgə maliyyələşdirilməsi proqramına 491, peşə hazırlığı kurslarına 988, peşəyönümü məsləhət xidmətlərinə 1886 nəfər cəlb olunub, 3734 nəfərə isə işsizliyə görə ödəniş verilib.

Dövlət başçısı əhalinin sosial müdafiəsinə həmişə xüsusi diqqət göstərir. Ölkədə aparılan sosial siyasət bütün insanların rifahının təmin olunmasına xidmət edir. 44 günlük Vətən müharibəsindən sonra şəhid olan əsgər və zabitlərin ailələri, eləcə də qazilərimiz dövlət tərəfindən qayğıkeşliklə əhatə olundu. Prezident İlham Əliyev bu il yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibəsində bu kateqoriyadan olan insanlara göstərilən dövlət dəstəyi haqqında demişdir: "Mən bütünlüklə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu bizim təşəbbüsümüz idi".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Ağdam Sənaye Parkında mühəndis-geoloji tədqiqat işlərinə başlanılıb

Qarabağın dirçəldilməsinə xidmət edəcək Ağdam Sənaye Parkında tikinti-quraşdırma işləri mərhələli şəkildə davam etdirilir.



Belə ki, Ağdam Sənaye Parkının 74,13 hektar ərazisində topoqrafik planlama işləri artıq yekunlaşdırılıb. Parkın ərazisində dağılmış tikililərin geometrik ölçüləri müəyyən edilib və ərazidən daşınması nəzərdə tutulan tullantıların həcmi dəqiqləşdirilib.

Bundan başqa, yanvar ayının 26-dan etibarən Sənaye Parkında mühəndis-geoloji tədqiqat işlərinə də başlanılıb. Geoloji-tədqiqat zamanı parkın ərazisində süxurların tərkibi və litoloji təsviri, qruntun fiziki və mexaniki xüsusiyyətləri müəyyən ediləcək.

## Ötən il sahibkarlara dövlət zəmanəti ilə 499,8 milyon manat kredit verilib



"Azərbaycanda COVID-19 pandemiyasından zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlardan dövlət zəmanəti ilə kredit almaq üçün 6940 müraciət daxil olub və 1,7 milyard manat məbləğində vəsait istənilib".

Bu barədə Sahibkarlığın İnkişafı Fondunun 2021-ci ilin yekunları ilə bağlı mətbuat konfransında fondun İdarə Heyəti sədrinin vəzifələrini icra edən Osman Xaliyev deyib.

O bildirib ki, müraciətlərdən 2630-na müsbət cavab verilib və dövlət zəmanəti ilə 499,8 milyon manat kredit ayrılıb. Kreditlərin say üzrə 99,4 faizi, məbləğ üzrə isə 91,7 faizi mikro, kiçik və orta sahibkarlarıq subyektlərinin payına düşüb.

O.Xaliyev onu da qeyd edib ki, 2022-ci il kreditlərin verilməsi üçün prioritet sahələr müəyyənləşdirilib.

O bildirib ki, bu prioritetlərin təsdiqi fondun Müşahidə Şurası tərəfindən həyata keçirilir. Kreditlər əsasən kənd təsərrüfatında istehsal və emal, sənayedə istehsal, emal və təkrar emal, xidmət sektoru, turizm, infrastruktur layihələrinin inkişaf etdirilməsinə ayrılacaq.

Osman Xaliyevin sözlərinə görə, bu il güzəştli kreditlərin verilməsi ilə bağlı 140 milyon manat vəsaitin ayrılması proqnozlaşdırılır.

O vurğulayıb ki, ötən il güzəştli kreditlərin verilməsi ilə bağlı 130,6 milyon manat nəzərdə tutulsa da, fond tərəfindən 135 milyon manat təsdiq edilib. Təsdiq edilən vəsaitin 130 milyon manatı ötən il verilib, 5 milyon manatı isə bu il mərhələli şəkildə veriləcək.

"İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyəti ilə bağlı daxil olan müraciətlər əsasında güzəştli kreditlərin verilməsinə müsbət baxılacaq, həmçinin əlavə güzəştlər də tətbiq oluna bilər", - deyə Osman Xaliyev əlavə edib.

## AMB-nin valyuta hərraclarında satış artıb



Yanvarda Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta hərraclarında satış artıb. Bu barədə AMB-nin sədri Elman Rüstəmov faiz dəhlizinin parametrlərinə dair onlayn mətbuat konfransında deyib.

O bildirib ki, bu, ilin sonunda dövlət büdcəsi xərclərinin artması, dövriyyəyə daha çox milli valyuta buraxılması ilə bağlıdır.

E.Rüstəmov onu da açıqlayıb ki, Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyəti faiz dəhlizi parametrlərinin yüksəldilməsi haqqında qərar qəbul edib. Onun sözlərinə görə, uçot dərəcəsi 7,25 faizdən 7,5, yuxarı həddi isə 8,25 faizdən 9 faizə yüksəldilib. Dəhlizin aşağı həddi 6 faizdə saxlanılıb.

## Qeyri-formal məşğulluğun ölçülməsi təcrübələrinə dair təlim keçirilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyada beynəlxalq ekspert Marek Radvanskinin iştirakı ilə təlim keçirilib.

Nazirliyin və qurumlarının, habelə Dövlət Statistika Komitəsi əməkdaşlarının iştirak etdiyi təlim Avropa İttifaqı ilə birgə layihə üzrə Milli Observatoriyanın işçi və işəgötürənlər arasında "Bacarıqların proqnozlaşdırılması" mövzusunda keçirdiyi sorğunun nəticələrinə həsr olunub.

Qeyri-formal məşğulluğun ölçülməsi sahəsində metodlar, habelə Avropa ölkələrinin təcrübəsi təlim iştirakçılarının nəzərinə çatdırılıb. Qeyri-formal iş sahələrinin müəyyənləşməsi, məşğulluğun ölçülməsi üçün sorğu sisteminin vacibliyi vurğulanıb.

Təlim Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Bacarıqların proqnozu və işçi qüvvəsinin planlaşdırılması sahəsində potensialının gücləndirilməsi" layihəsi çərçivəsində həyata keçirilib.

## KOBİA Cəlilabadda çiyələk istehsalçıları ilə görüş keçirib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) dəstəyi ilə Cəlilabad rayonunda çiyələk istehsalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektləri ilə görüş keçirilib.

Agentliyin Lənkəran regional koordinatorluğunun təşkilatçılığı ilə keçirilmiş görüşdə İqtisadiyyat Nazirliyinin Lənkəran regional bölməsinin, Cəlilabad Rayon İcra Hakimiyyətinin, Azərbaycan Giləmeyvə İstehsalçıları və İxracatçıları Assosiasiyasının, Almaniya və Türkiyənin müvafiq sahədə fəaliyyət göstərən şirkətlərinin nümayəndələri, eləcə də regionda fəaliyyət göstərən 30-a yaxın sahibkarlıq subyekti iştirak edib.

Görüşdə xarici mütəxəssislər çiyələyin yetişdirilməsi, yığılması və satışı zamanı baş verə biləcək itkilərin qarşısının alınması üçün effektiv vasitə olan "freeze dry" texnologiyası barədə yerli sahibkarları məlumatlandırıb, gələcəkdə qeyd edilən texnologiya ilə çiyələyin qurudulması müəssisəsinin yaradılması üzrə investisiya imkanlarına dair müzakirələr aparıblar.

Tədbir çərçivəsində, həmçinin sahibkarların təklifləri dinlənilib, onları maraqlandıran suallar aidiyyəti qurumların nümayəndələri tərəfindən cavablandırılıb.

# Abadlıq küçələrdən başlayır

### Qarabağı və Şərqi Zəngəzuru nəhəng tikinti meydanına çevirən Azərbaycan dövləti digər şəhərlərin səliqə-sahmanını da unutmur

Bakının təkrarolunmaz gözəlliyinin bir şərti də burada qədimliklə müasirliyin sıx vəhdət təşkil etməsidir. Şəhərdə müxtəlif təyinatlı yeni tikililər ucaldılmaqla yanaşı, köhnələrin təmir və bərpası da unudulmur. Yeni yollar salınır, körpülər tikilir, küçələr salınır, eyni zamanda köhnə infrastrukturun təmiri həyata keçirilir. Son zamanlar paytaxtın küçələrində aparılan təmir-bərpa işləri buna aydın misaldır.



İndiyədək bu işlər Bakının onlarca küçəsində başa çatdırılıb və beləliklə, paytaxt sakinlərinin və qonaqların rahatlığı təmin olunub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) təkcə keçən ilin son ayında yol infrastrukturu ilə bağlı görülən işlər barədə məlumatına diqqət yetirək. Belə ki, dekabrda 14 min 3 metr uzunluğunda 21 küçə əsaslı təmir edilib, əsaslı təmir işlərinin aparıldığı sahə 111 min 200 kvadratmetr olub.

Əsaslı təmir zamanı küçə və yollara 8902 poqonometr səki daşları düzülüb, 199 kanalizasiya lük yenisi ilə əvəz olunub, 17 min 824 poqonometr üfüqi nişanlanma xətləri çəkilib. Bundan başqa, orta təmir işlərinin aparıldığı küçələrin uzunluğu 4005 metr, orta təmir işlərinin aparıldığı sahə isə 26 min 161 kvadratmetr təşkil edib.

Vətəndaşların rahat gediş-gəlişini təmin etmək məqsədilə, o cümlədən Bakının Nərimanov rayonu ərazisində kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlər çərçivəsində "İnvestisiya Proqramı"na əsasən, Qarabağ küçəsi əsaslı təmir olunub. Bu küçənin əsaslı şəkildə təmir olunmuş Gülarə Qədirbəyova və Əliağa Vahid küçələri arasında yerləşən hissəsinin uzunluğu 900 metr təşkil edir.

Təmir işləri çərçivəsində mövcud piyada səkiləri 3650 kvadratmetr sahədə bərpa olunub, küçəboyu hər bir tərəfdə və yol ayrıcına 4 min poqonometr sahədə yeni səki daşı düzülüb. 12 min kvadratmetr sahədə 2 laydan ibarət yeni asfalt-beton örtüyü döşənib.

Layihəyə, eləcə də səth sularının yolun hərəkət hissəsindən kənarlaşdırılması üçün mövcud yağış-kanalizasiya sisteminin bərpa olunması, 40 poqonometr boru, 18 yeni yağış barmaqlığının quraşdırılması, kommunikasiya xətlərinin 42 baxış qapağının yenisi ilə əvəzlənməsi də daxil idi ki, bu işlər də artıq yerinə yetirilib.

Eyni zamanda küçəboyu yol ayrıcında yerləşən yaşıllıq ərazi abadlaşdırılıb, vətəndaşların həmin ərazi ilə rahat və təhlükəsiz hərəkəti üçün 900 metr uzunluğunda xüsusi piyada zolağı salınıb.

Yol nişanları, üfüqi nişanlanma xətləri, piyada zolaqları və parkinq yerləri ilə təmin olunaraq müasir görkəm alan küçə artıq vətəndaşların rahat gediş-gəlişinə xidmət edir.

Qeyd edək ki, 2021-ci il ərzində Nərimanov rayonunda ümumi uzunluğu 11 kilometrdən çox olan 15-dən çox küçə və yolun təmiri işləri aparılıb. Ondan əvvəlki iki il ərzində isə rayon ərazisində 20 kilometr uzunluğa malik küçə və yol təmir edilib.

Avtomobil yollarının, küçə və prospektlərin təmir-bərpası, yenidənqurma işləri eləcə də Yasamal rayonunda davam etdirilir. Bakı Nəqliyyat Agentliyinin pilot layihəsi əsasında rayonun Bəsti Bağırova və Məhəmməd Naxçıvani küçələrində, həmçinin bu küçələrlə kəsişən Giləzi, Murtuza Muxtarov, Cabbar Qaryağdıoğlu, Mirzə Fətəli Axundzadə və Mustafa Sübhi küçələrinin əsaslı şəkildə yenidən qurulması nəzərdə tutulur.

Yenidənqurma işlərinin aparılması nəzərdə tutulan 7 küçənin ümumi uzunluğu 1777 metrdir. Təmir-bərpa işlərinə uzunluğu 450 metr, hərəkət hissəsinin eni 14,5 metr olan Bəsti Bağırova küçəsindən start verilib. Küçənin köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınır, yararsız səki daşları sökülərək 1100 poqonometr uzunluğunda yeni səki daşları ilə əvəz olunur, yeni piyada səkiləri salınır.

Təmir-bərpa işləri çərçivəsində küçə üzrə piyada səkilərinin sahəsi 8390 kvadratmetr, avtonəqliyyat vasitələrinin hərəkət etdiyi hissənin sahəsi isə 6 min 530 kvadratmetr təşkil edəcək. Eyni zamanda küçəboyu səth sularının normal kənarlaşdırılmasını təmin etmək məqsədilə yağış-kanalizasiya sisteminin bərpa olunaraq işlək vəziyyətə salınması, yeni yağış barmaqlıqlarının, həmçinin 78 ədəd yeni baxış qapaqlarının qoyulması da nəzərdə tutulub.

Ərazidə aidiyyəti qurumlar tərəfindən yeraltı kommunikasiya xətlərinin yenilənməsi, zəruri yerlərdə yeni xətlərin çəkilməsi işləri də aparılır. Bu da həmin küçələrdə örtüyün vaxtından əvvəl zədələnməsinin qarşısını alacaq.

Yenidənqurma işləri mərhələli şəkildə, "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən aparılacaq.

Xatırladaq ki, AAYDA İnvestisiya Proqramları çərçivəsində 2019-2021-ci illərdə Yasamal rayonu ərazisində təqribən 20 kilometr uzunluğa malik küçəni əsaslı təmir edib. Təkcə keçən il bu proqrama uyğun olaraq rayon üzrə nəzərdə tutulan və ümumi uzunluğu 4 kilometr olan 11 küçədə əsaslı təmir işləri həyata keçirilib.

Onu da əlavə edək ki, Yasamal rayonunda həmçinin yeni yol inşa olunub. Yeni yol "Qanlı göl"ün qərb hissəsi boyunca Yasamal Yaşayış Kompleksinə qədər uzanır. Mənzil İnşaatı Dövlət Agentliyinin sifarişi əsasında inşa olunan 2 hərəkət zolaqlı yolun uzunluğu 1250 metr, eni isə 9 metr təşkil edir.

Son mərhələdə avtonəqliyyat vasitələrinin normal hərəkətinin təmin edilməsi məqsədilə zəruri yerlərdə yol-cizgi və yolgöstərici xətlər, həmçinin piyada zolaqları çəkilib. Yeni yolun inşası Yasamal Yaşayış Kompleksinin yerləşdiyi əraziyə alternativ giriş-çıxış imkanı yaradır.

2022-ci ildə də paytaxtın küçə və yollarında müvafiq işlərin aparılması nəzərdə tutulur. Bu da onu göstərir ki, Qarabağı və Şərqi Zəngəzuru nəhəng tikinti meydanına çevirən Azərbaycan dövləti digər şəhər və bölgələri də yaddan çıxarmır. Hətta ayrı-ayrı küçələrin abadlığı diqqət mərkəzindədir. Bu da öz növbəsində orada yaşayan, yaxud yolu həmin yerdən keçən hər bir vətəndaşa qayğıkeşliyin təzahürüdür.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Suqovuşandan gələn su anbarlara toplanır

Bərdə Suvarma Sistemləri İdarəsi tərəfindən rayon ərazisində suvarmanın mütəşəkkil aparılması, suvarma suyunun su istifadəçilərinə itkisiz çatdırılması istiqamətində son illər xeyli iş görülüb.

Rayon ərazisində yerləşən və suvarmada önəmli yerə malik olan Zümrüxan su anbarına 2020-ci ilə qədər kifayət qədər su toplana bilmirdi. Səbəb isə anbarı qidalandıran Suqovuşan su anbarının düşmən işğalı altında olması idi. Artıq həm Suqovuşan öz azadlığına qovuşub, həm də Zümrüxan su anbarı kifayət qədər su ilə qidalana bilir.

Bu barədə AZƏRTAC-a Meliorasiya və Su Təsərrüfatı ASC-dən məlumat verilib. Bildirilib ki, Bərdə Suvarma Sistemləri İdarəsi tərəfindən ötən il bir sıra tədbirlər görülüb. Belə ki, 218 ədəd hidrotexniki qurğu təmir olunub, torpaq məcralı kanallar beton üzlüyə alınıb, uzun müddət istifadə olunub yararsız vəziyyətə düşən beton kanalda əsaslı təmir işləri aparılıb. Bundan başqa, 58 kilometr kollektor-drenaj şəbəkəsi lildən təmizlənib, 2 nasos stansiyasının dördaqreqatlı Şəhriyar və üçaqreqatlı Mirzəxan nasos stansiyalarının elektrik avadanlığı müasir standartlara cavab verən avadanlıqlarla əvəz olunub.

## "Azeri Light" 93,17 dollara satılır

AZƏRTAC xəbər verir ki, Azərbaycan neftinin qiyməti ucuzlaşıb.



"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,67 dollar azalaraq 93,17 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti ötən gün (93,84) qeydə alınmışdı.




# Dünyanın ilk fabriki

**Əl əməyindən sonra xüsusi avadanlıqlarla istehsalı həyata keçirən fabriklər bir çox işləri asanlaşdırıb. Bu sahənin yaradılması ilə sənayeləşmiş cəmiyyətə keçid dövrü başladı. Zavod və fabriklərin yaradılması insanların yaşayış tərzini və işləmə prinsipini dəyişdi. Bazar rəqabəti nəticəsində yüksək səmərəlilik və aşağı xərclə daha geniş çeşiddə malların istehsal edilməsi insanların həyat səviyyəsini yüksəltdi.**



Mütəxəssislər qeyd edirlər ki, ilk fabriklər Çində yaradılıb. XII əsrdə kağız pulların islehsalı üçün Çində böyük müəssisənin əsası qoyulmuşdu. Hətta fabrik mindən çox işçi qüvvəsinə sahib idi. Venesiyalılar ibtidai fabrik istehsalatına gəmi hazırlamaqla başlayıblar. Güman edilir ki, günə bir gəmi düzəldən müəssisədə 16 min işçi çalışıb.

İlk müasir fabrik isə 1721-ci ildə Corc Sorokold tərəfindən tikilmiş və Lombe qardaşlarına məxsus "Derby Silk Mill" müəssisəsi olub. Con Lombe 1716-cı ildə İtaliyaya səyahət edən zaman dəyirmanlardan birində ipək istehsalı üçün avadanlığın kağız üzərində planını görüb. Orada ipək istehsalına lazım olan maşının su gücü ilə idarə edilməsi təsvir edilmişdi. Lombe bir il sonra İngiltərəyə qayıdanda özü ilə italyan işçilər gətirib və bu plan əsasında ipək istehsalı üçün patent alıb.

Müəssisə Derbi şəhərində iki əsas binadan ibarət olub. Aşağı hissədə, çayın yerləşdiyi ərazidə axar su ilə işləyən dəyirman, yuxarı hissədə isə sex tikilib. Onun gətirdiyi işçilər dəyirmanda fəaliyyət göstəriblər. Fabrikin İngiltərədə yaradılması dünyaya yayılan zaman əsl ideya müəllifləri bundan xəbər tutub və bu hadisə italyanlarda qəzəb yaradıb. 1722-ci ildə bir italyan bu ideyanı oğurladığı üçün Con Lombeni zəhərləyərək öldürüb.

XVIII əsrin sonlarında fabrik Daniel Defo, Benjamin Franklinin ziyarətlərindən sonra bir çox turistlərin gəldiyi məşhur bir məkana çevrilib. Müəssisə iki dəfə, 1891 və 1910-cu illərdə baş vermiş dəhşətli yanğından sonra, demək olar ki, tamamilə yarasız hala düşüb. Yenidən bərpa edildikdən sonra isə mağaza, emalatxana, yeməkxana kimi istifadə olunub. Uzun müddət ictimaiyyət tərəfindən unudulmuş müəssisə hazırda Derbinin Sənaye Muzeyi kimi fəaliyyət göstərir.

# Bədən üzvünün əvəzləyicisi

**Elm bədənin zədə nəticəsində reabilitasiya oluna bilməyən hissəsinə uyğun əvəzedicinin mümkünlüyünü ortaya çıxarıb. Protezlər ondan istifadə edən şəxsin psixoloji baxımdan tamamlanmış olmasına, eyni zamanda hərəkət funksiyasının bərpasına kömək edir.**



Eramızdan əvvəl 950-710-cu illərə aid ən qədim protez Qahirədə zadəgan qadının mumiyalanmış cəsədi üzərində aşkar edilib. Bu, dəri və ağacdan hazırlanmış ayaq barmağı idi. Protez doğuş və ya amputasiya səbəbi ilə ayağının baş barmağını itirmiş bir qadına cərrahi sapla birləşdirilib. Estetik baxımdan da olduqca yaxşı hazırlanıb.

Maraqlısı odur ki, hazırlanan ilk protez ayaq, qol yox, məhz barmaq idi. Bunun izahı Misirdə qədim dövrə aid sandalların qadınlar tərəfindən geniş istifadəsi ilə verilir. Zadəgən ailəsinə mənsub olan qadının isə bu ayaqqabı növündən istifadə üçün itirmiş olduğu barmağını bərpa etmək istəyi həmin kəşfə yol açmışdı.

Misirdə bir neçə yüz il sonra kətan, gips və yapışqandan hazırlanmış digər barmaq protezinə rast gəlinib. Lakin bu, hərəkət üçün əlverilişli olmayıb. Çox güman ki, istifadəçinin xarici görünüşünü tamamlamaq üçün hazırlanıb.

Tarixi sənədlərdə qeyd olunan ilk protezin istifadəçisi romalı general Markus Sergiusdur. O, İkinci Pun müharibəsində sağ əlini itirib. Onu bərpa etmək üçün dəmirdən protez hazırlanıb. O, bununla qalxanını tuta bilib və döyüşlərdə iştirak edib.

Döyüşlər protezlərdən istifadənin artmasına səbəb olub. Çünki savaş zamanı silahlı cəngavərlər itirilmiş əl, qol nahiyyələrini mütləq bərpa etmək və ya gizlətmək məcburiyyətində qalıblar. Lakin onların inkişafı olduqca yavaş gedib.

XVI əsrin əvvəllərində həkim Ambroise Pare ilk dəfə protezlərin hazırlanmasında əhəmiyyətli irəliləyişlər əldə edib. O, həmçinin bu sahə ilə bağlı ilk kitabın müəlliflərindəndir. Parenin hazırladığı protezlər funksionallığı ilə seçilib. Belə ki, onları bioloji əzaların işlədiyi kimi işlətmək mümkün olub. Ayaq, qol üçün olanlar bükülür, düzəldikdə kilidlənərək sabit hala gətirilirdi. Hətta əl üçün olan protezdən istifadə edən fransız ordusunun kapitanı atın cilovunu sərbəst tutub, buraxa bildiyini də qeyd etmişdi.

Bugünkü protez növləri fərdiləşdirilməsi, cəlbedici örtükləri, yüksək templi funksionallığı ilə ehtiyacı olan hər bir şəxsə özünü tamamlanmış və məhdudiyyətsiz hiss etdirir.

# Zərurətlə yaranıb arzuya çevrilən əməliyyat

**Tibbi zərurətlə yaranan estetik əməliyyatların tarixində heç bir gözəllik axtarışı, gəncləşmə ideyası olmayıb. Lakin hazırda əsasən qadınlar könüllü olaraq bu prosesi daha cəlbedici görünmək üçün edirlər.**



"Plastikos" sözü yunancadan tərcümədə "forma vermək" mənasını ifadə edir. Plastik əməliyyatlara ilkin təşəbbüs antik dövrlərdə edilib. Bu cərrahi proseslərin də vətəni Misirdir.

"Edwin Smith Papirus" adlı qədim tibbi mətndə müxtəlif xəsarətlər və diaqnozlarda atılacaq addımlar qeyd olunub. Bura sümük sınıqları zamanı zəruri müalicələr, burun zədələrində orqanın uyğun hala gətirilməsi, tamponlar, kətan tıxaclardan düzgün istifadə haqqında bir çox məlumatlar daxil edilib.

Eramızdan əvvəl VI əsrdə Hindistanda həkimlər müasir rinoplastikada olduğu kimi prosedurlar həyata keçiriblər. Məşhur hind həkimi Suşruta Samhita dəri transplantasiyası üçün inkişaf etmiş bir texnika yaradıb. Həmin vaxt Hindistanda qanunazidd və ya zina hərəkətlərinə yol verən şəxslərin burunları kəsilirdi. Burnu olmayan insanlar cəmiyyətdə görünən zaman onların günahkar olduqları anında bəlli olurdu. Belə utancverici halda qalmamaları üçün Suşruta başqa nahiyyələrdəki dərilərdən istifadə edərək burunları bərpa etməyə başlayıb. Dəri ya alından, ya da yanaqdan götürülürdü.

Həmin dövrdə digər tibbi biliklər üzrə romalı yazıçı Aulus Kornelius Celsus qulaqların, dodaqların və burunların bərpası üçün cərrahi üsulları ortaya çıxaran "De Medicina" kitabını yazıb. Bu kitabda üz qüsurlarını düzəltmək üçün rekonstruktiv cərrahiyyə üsullarının dəqiq izahları verilib. Belə əməliyyatlar zamanı isə keyidici kimi şərabdan istifadə edilib. Ağrı və risklərdən dolayı bu prosesləri yalnız ehtiyacı olanlar ediblər.

Bir çox istiqamətlərdə olduğu kimi, estetikanın inkişafına da müharibələr səbəb olmuşdu. Bu zaman xəsarət alanların çoxluğu həkimlərə müxtəlif yeni texnikaları sınaqdan keçirməyə imkan verirdi. XIX əsrdə tibbə gətirilən anesteziya əməliyyatları daha da asanlaşdırmışdı.

Plastik cərrahiyyənin müasir tarixi isə 1960-70-ci illərdə formalaşmağa başladı. Bu müddət ərzində tətbiq edilməyə başlanılan silikon maddəsi cərrahiyyə prosedurlarının əsas hissəsi kimi populyarlığı artan yeni üsul idi. Hazırkı vaxtda bu sahədə ən mühüm tendensiya qocalmanın görünən əlamətlərinin qarşısını almaq üçün nəzərdə tutulmuş prosedurların həyata keçirilməsidir.

# Futbolun vətəni

**Geniş azarkeş kütləsi ilə fərqlənən, 90 dəqiqənin bir çoxları üçün su kimi axdığı müddəti özündə ehtiva edən oyun - futbol idman yarışlarının ən seçilənidir. Futbol dedikdə, ilk olaraq ağla İngiltərə gəlir. Lakin bununla bağlı rəsmi sübutlar müasir futbolun İngiltərədə yaranmasından öncə dünyada alternativ versiyaların mövcudluğunu göstərir.**



Topla komanda şəklində oynanılan ilk oyunun nümunələrinə 3 min il bundan əvvəl Mərkəzi Amerika mədəniyyətində rast gəlinib. Oyundakı top rezindən hazırlanaraq sıçrayışlı olması ilə fərqlənib. Həmin dövrdə hələ heç bir mədəniyyət rezinlə tanış deyildi.

Eramızdan əvvəl III əsrdə Çində yaranan "Tsu" ("Cuju"- topa vurmaq) oyunu FİFA tərəfindən futbolun məlum olan ən erkən forması kimi qəbul edilib. "Tsu" oyununun qaydalarına görə, oyunçular topa əldən başqa bütün bədən üzvləri ilə toxuna bilərdilər. Oyunun məqsədi topu torun ortasında yerləşən 30 santimetrlik deşikdən keçirmək idi. Oyunda istifadə olunan top dəri materialın içərisinə xəz və ya lələk qoyulmaqla hazırlanırdı.

Günümüzdə oynanılan idman oyunlarının başı hesab edilən müasir futbol isə İngiltərədə yaranıb. Futbolun yazılı qaydaları ilk dəfə 1848-ci ildə hazırlanıb. 1863-cü ildə isə İngiltərə Futbol Assosiasiyasının əsası qoyulub. Bundan sonra oyun üçün yeni qəbul edilən qaydalar təkmilləşdirilərək vahid hala gətirilib.

Sonrakı dövrlərdə futbol daha da geniş oynanılıb və azarkeş kütlələri ilə əhatə olunmağa başlayıb. Beləliklə, dünyada məşhurlaşmağa başlayan bu oyun üçün beynəlxalq səviyyədə addımlar atılmasına ehtiyac yaranıb. 1904-cü ildə FİFA yaranandan sonra müasir futbol beynəlxalq səviyyədə olan oyun statusunu qazanıb.

# Konsert ənənəsinə start

**Müsbət xatirələrin cəmləşdiyi, səhnədəki ifaçıların qabiliyyəti ilə gözəlləşdirilən ab-hava konsertlərlə təqdim olunur. Konsertin ilk formaları universitetlərlə bağlıdır. XVII-XVIII əsrlərdə alman universitetlərində bir qrup tələbələrin müşayiəti ilə musiqili görüşlər keçirilir və seyrçilər dəvət olunurdular.**



İlk ictimai konsert 1672-ci ildə skripkaçı Con Banister tərəfindən onun Londondakı evində verilib. Konsertə qatılanlar 1 şillinq ödəməklə istədikləri mahnının səsləndirilməsini sifariş edə bilərdilər. Banister skripka çalmağı atasından öyrənmişdi. Mahir çalğıçı olduğu zaman kralın 24 skripkaçıdan ibarət qrupuna qoşulmuşdu. Əlavə təlimlər keçdikdən sonra isə həmin saray qrupunun rəhbəri olmuşdu. O, ölümünə qədər belə konsertlərin tək müəllifi idi.

Daha sonra 1678-ci ildə Tomas Britton adlı musiqiçi Klerkenveldə həftəlik konsertlər verməyə başlamışdı. Ancaq bu konsertlər nisbətən fərqli idi. Brittonun tədbirlərində illik abunə haqqı tətbiq olunmuşdu. Qatılmaq istəyənlər ildə 10 şillinq ödəməklə istədikləri qədər konsertə baxa bilərdilər.

XVIII əsrin sonlarından etibarən isə ingilis konsertlərinə Haydn, Motsart kimi musiqiçilər gətirilərək ifaları dinlənilirdi. O dövrdə İngiltərədə musiqili tədbirlər təbiət qoynundakı bağlarda keçirilirdi. İfa olunan repertuarlar Motsartın bəstələdiyi əsərlərdən tutmuş, o dövrdə məşhur olan mahnılara qədər bütün musiqi nümunələrindən ibarət idi.

XIX əsrdə konsert proqramları, əsasən, İngiltərə, Fransa, Almaniya və İtaliyanı əhatə edirdi. Həmin zaman ABŞ-ın konsert fəaliyyətinə xüsusi töhfəsi simfonik orkestrlərin yaradılması oldu. Bu, Avropa sənətçilərini də cəlb etdi. XX əsrin əvvəllərindən etibarən isə böyük konsert zallarının tikilməsi, müxtəlif janrların formalaşması, peşəkar orkestr müşayiəti ilə keçirilən və kameralarla əbədiləşdirilən proqramlar musiqi festivallarının əsas cazibələrindən birinə çevrildi.

İlk konsert turuna çıxan şəxs isə Frans List olub. Məşhur pianoçu, bəstəkar 1839-cu ildən başladığı konsert turları zamanı bütün Avropaya üz tutmuş, qastrol səfərlərini təkbaşına həyata keçirmişdi.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***




# Qeyri-adi ekzoplanet



**Bəşəriyyətə məlum olan planetlərin çoxu kürə formasındadır. Lakin Avropa Kosmik Agentliyinin "CHEOPS" teleskopu kosmosda qeyri-adi formalı "WASP-103b" adlandırılan ekzoplanet aşkar edib.**

Bu ekzoplanetin əsas fərqləndirici cəhəti təhrif edilmiş formaya sahib olmasıdır. Təhrif edilmiş forma ekzoplanetin aid olduğu ulduz tərəfindən məruz qaldığı böyük qabarma ilə bağlıdır.

Ayın qravitasiya gücü Yer kürəsinə təsir göstərir və nəticədə planetimizdəki dünya okeanının qabarma və çəkilməsi baş verir.

"WASP-103b" ekzoplaneti öz ölçüsünə görə Yupiterdən iki dəfə böyükdür. Kütləsi isə Yupiterdən 1.5 dəfə çoxdur. Sözügedən ekzoplanet öz ulduzuna o dərəcədə yaxın məsafədə yerləşir ki, onun ətrafında tam dövrü 1 sutkadan az müddətdə qət edir. Planetin ulduza bu dərəcədə yaxın məsafədə olması öz növbəsində çox güclü qabarma prosesinə səbəb olur. Nəticədə qabarma ekzoplanetin deformasiyasına və formasının təhrif olunmasına gətirib çıxarır. Buna görə də "WASP-103b" kürədən daha çox oval formanı xatırladır.

# Şuşanın virtual sərgisi

**Bənzərsiz tarixi görkəmini qoruyub saxlayan Şuşa yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır. Şuşanın işğaldan azad edilməsindən sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına da başlanılmışdır.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli Sərəncamı ilə 2022-ci ilin "Şuşa ili" elan edilməsi ilə əlaqədar Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanasında "Şuşa" adlı virtual sərgi hazırlanıb. Sərgidə Şuşa haqqında rəsmi sənədlər, Azərbaycanın görkəmli şəxsiyyətlərinin fikirləri, şəhərin tarixi, mədəniyyət ocaqları, coğrafiyası haqqında kitablar, eləcə də dövri mətbuat səhifələrində dərc olunan məqalələr, fotolar nümayiş olunur.

# Yeni "Samsung" prosessoru




**Uzun fasilədən sonra "Samsung" şirkəti "Exynos 2200" prosessorunu təqdim edib. Yeni prosessorun əsas özəlliyi yüksəkkeyfiyyətli qrafik çiplə təchiz olunmasıdır.**

"Exynos 2200" 4 nanometrlik texnoloji proses əsasında hazırlanıb və 8 nüvədən ibarətdir. Nüvələr 3 bölməyə ayrılıb: 1 ədəd "Cortex-X2", 3 ədəd "Cortex-A710", 4 ədəd "Cortex-A510" nüvəsi. Qrafik özəllikləri isə xüsusi mikroarxitektura əsasında qurulmuş "Samsung Xclipse" qrafik sürətləndiricisi cavabdehdir. "Samsung"dan verilən məlumata əsasən, sözügedən qrafik sürətləndirici konsol səviyyəsində oyun təcrübəsini təqdimetmə gücünə malikdir.

"Exynos 2200" prosessoru neyron hesablamalar üçün ayrıca yeni nəsil blokla təchiz olunub. Həmin blok fotoların daha yüksək keyfiyyətdə emal olunmasında istifadə edilir. "Samsung"un yeni prosessoru 200 meqapiselə kimi olan kamera obyektivlərini və saniyədə 60 kadr sürətlə 8K videoların çəkilişini, QHD keyfiyyətli ekranları dəstəkləyir. Prosessora inteqrasiya edilmiş xüsusi modem bütün aktual standartlı 5G və LTE şəbəkələrdə çalışa bilir. Prosessorun daha bir fərqləndirici özəlliyi odur ki, xüsusi qorunma elementi sayəsində qapalı kriptoqrafik açarlara sahibdir.

Şirkətin mühəndisləri bildirirlər ki, "Exynos 2200" artıq kütləvi istehsal prosesindədir. "Samsung"un hansı smartfon modellərinin bu prosessoru əldə edəcəyi barədə isə hələlik heç bir məlumat yoxdur.

# "Texnofest-2022"də nələr olacaq

**Azərbaycanda keçiriləcək "Texnofest-2022" Festivalının tarixi məlum olub. Bu texnologiya, elm və rəqabət festivalı mayın 26-da başlayacaq və mayın 29-dək davam edəcək. "Texnofest-Azərbaycan" çərçivəsində keçiriləcək yarışmalara qeydiyyat artıq başlayıb. Dünyanın müxtəlif ölkələrindən olan iştirakçılar texnologiya festivalına qatıla biləcəklər.**




Kənd təsərrüfatı texnologiyalarından yaşıl texnologiyalara, pilotsuz uçan aparatlardan model peyk yarışmasına qədər müxtəlif kateqoriyalar üzrə keçiriləcək müsabiqələrə gənclər öz layihələrini təqdim edəcəklər. Müsabiqələr müxtəlif kateqoriyalar üzrə keçiriləcək. Avropa Kuboku Roket Liqası Oyunu ilə yerli startapları xarici investorlarla bir araya gətirəcək "Take Off Azərbaycan Startap Zirvəsi" də tədbirlər sırasındadır.

Festival ilk dəfə 2018-ci ildə keçirilib. Türkiyədə milli texnologiya hərəkatı adını alan möhtəşəm tədbirin məqsədi hər il texnologiyalar sahəsində yeni imzaları, yeni nailiyyətləri, rekordları üzə çıxarmaqdır. "Texnofest-2021" ötən il İstanbulda gerçəkləşdirilib. O, Atatürk Hava Limanında keçirilən sayca dördüncü festival idi.

"Baykar" şirkətinin texniki direktoru Səlcuq Bayraktar bir neçə gün əvvəl "Tviter" hesabında "Texnofest-2022" ilə bağlı paylaşım edib. O, öz paylaşımında "Kodlarını milli texnologiya həmləsi ilə yeniləyənlərin festivalı" yazaraq Türkiyə və Azərbaycan bayraqlarının qoşa şəklini paylaşıb.

# "Ağıllı" silah




**Silah istehsalı ilə məşğul olan "LodeStar Works" şirkəti 9 millimetr kalibrli smart tapançanı təqdim edib. "SmartGunz" şirkəti radiotezlikli identifikasiya əsasında yaradılmış məhsulunu təklif edib. "Biofare" şirkəti isə barmaq izi skanı texnologiyasına sahib silahın hazırlanmasını planlaşdırır.**

"Ağıllı" silahın əsas üstünlüyü kənar şəxsin ondan istifadə edə bilməməsidir. Yeni texnologiyaların silah istehsalına inteqrasiya edilməsi öz növbəsində bədbəxt hadisələrin qarşısını alınmasında yardımçı olacaq. Üstəlik, silah oğurluğu da kəskin azalacaq. Belə ki, oğurlanmış silahdan istifadə etmək mümkün olmayacaq.

Bir çox hallarda müxtəlif identifikasiya üsulundan istifadə məsləhət görülür. "LodeStar Works" şirkəti öz diqqətini məhz bu cür silahın hazırlanmasına yönəldib. Sözügedən şirkətin 9 millimetr kalibrli tapançasına barmaq izi skanı texnologiyası inteqrasiya edilib və bundan əlavə, o, "Bluetooth" vasitəsilə xüsusi smartfon tətbiqinə qoşula bilir. Silahda olan üçüncü təhlükəsizlik səviyyəsi isə rəqəmsal PIN kodun daxil edilməsidir. Sözügedən tapançanı bir neçə istifadəçi üçün identifikasiyadan keçirtmək mümkündür.

Smart silahların istehsal olunmasını dəstəkləyənlər və buna qarşı çıxanlar da var. Qarşı çıxanların fikrincə, bu cür texnologiyalara malik silahlardan istifadə vaxt itkisinə gətirib çıxarır. Belə ki, fövqəladə hadisəyə operativ reaksiyanın verilməsi halında bu cür silahların effektivliyi azalır. Məsələn, hansısa cinayətkarın hücumu zamanı barmaq izi skanı texnologiyası sürətlə çalışmaya bilər. Rəqəmsal PIN kodun daxil edilməsi isə bu cür ekstremal hallarda çox dəyərli saniyələri heçə endirir. Bundan əlavə, bir müddət öncə hakerlər smart silahın təhlükəsizlik sisteminə daxil olmağı bacarmışdılar.

Bütün bunlara baxmayaraq, ABŞ-da smart silahların artıq bu il satışa çıxarılması planlaşdırılır.

# "İnstaqram"da daha bir yenilik

**Bütün dünyada, eləcə də ölkəmizdə geniş auditoriyası olan "İnstaqram" ən çox istifadəçisi olan sosial şəbəkələr siyahısındadır. "Meta" şirkətinin bu sosial şəbəkəsinin funksiyaları mütəmadi olaraq yenilənir.**




Bu günlərdə "İnstaqram"da "Take a Break" ("Fasilə ver") adlı funksiya istifadəyə verilib. Funksiya sosial şəbəkədən həddindən çox istifadə edənlər üçün nəzərdə tutulub. O, istifadəçiyə fasilə verməsini xatırladır.

Təqdim edilmiş yeni xəbərdarlıq funksiyası internetdən asılılığın, lüzumsuz vaxt itkisinin qarşısının alınmasına xidmət edir.

# Su üzərində tikilən ən böyük günəş elektrostansiyası

**"Huaneng Power International" şirkəti Çinin şərqində yerləşən Şantun vilayətində günəş elektrostansiyasının inşasını yekunlaşdırıb.**



Su üzərində tikilən elektrostansiyanın bütün panellərinin ümumi gücü 320 meqavatdır. Lakin o, dünyanın suda yerləşən ən böyük günəş elektrostansiyası statusunu uzun müddət özündə saxlaya bilməyəcək. Belə ki, 2023-cü ildə Hindistanda 600 meqavat gücə sahib, 2024-cü ildə isə İndoneziyada 2.2 giqavat gücündə günəş elektrostansiyalarının inşası nəzərdə tutulur.

Su üzərində olan yeni günəş elektrostansiyası 2.65 giqavat gücü olan kömür istilik elektrostansiyasına yaxın su hövzəsində yerləşir və 100 meqavatlıq külək elektrostansiyası ilə 8 meqavat həcmli enerji saxlama sisteminə birləşdirilib. Bütün bu sistemlər "Huaneng Power International" şirkətinə məxsusdur.

Günəş elektrostansiyasının inşası iki mərhələdə reallaşdırılıb. İlkin mərhələdə 200 meqavat, ikinci mərhələdə isə 120 meqavatlıq panellər istifadəyə verilib. İlkin mərhələ enerji saxlama sistemi ilə birlikdə 2020-ci ildə, ikinci mərhələ isə keçən ilin son rübündə yekunlaşıb. Gözləntilərə əsasən, il ərzində sözügedən sistem ümumilikdə 550 milyon kilovat elektrik enerjisini generasiya edə biləcək.

# Xüsusi linzalar

**Kanadanın "Ocumetics Technology" şirkəti "Bionic Lens" adlı bionik linzaların klinik testlərini başa çatdırıb. Bu linzalar optik eynəkləri və digər linzaları əvəz edə bilər. Mütəxəssislər yaxın 2 il ərzində həmin linzaların kütləvi istehsalanı planlaşdırırlar.**



"Bionic Lens" katarakta cərrahiyyəsi sayəsində təbii linzaları əvəz edən dinamik linzalardır. Sözügedən cihaz bütün məsafələrdə olan görmə qabiliyyətini bərpa edir. Bundan əlavə, bu linzalar göz əzələlərinə birləşərək özünü tənzimləyə və beləliklə, müxtəlif məsafələrə fokuslanmağa imkan verir.

Maraqlıdır ki, "Bionic Lens"dən istifadə zamanı insan adi gözündən fərqli olaraq, enerjinin yüzdəbir hissəsini istifadə edir. Nəticədə hətta bütün gün ərzində kitab oxuyanda belə gözdə yorğunluq hiss olunmur. Mütəxəssislərin sözlərinə görə, bionik linzalar hesabına 30 metr məsafədəki ən kiçik detalları belə görmək mümkündür. Bununla yanaşı, bəzi məsafələri görmək üçün, adətən, mikroskopun lazım olduğu obyektləri də görə bilirsən. Məsələn, barmağı linzaya yaxınlaşdıranda hətta dərinin ayrı-ayrı hüceyrələrini belə görmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, şirkət öz linzalarının gələcəkdə yenilənmək imkanlarını da təqdim edir. Məsələn, sonralar göz qişasının üzərinə mobil cihazın interfeysi əks oluna, piksel keyfiyyəti yüksələ və ya dərmanın birbaşa gözə ötürülməsi sistemi tətbiq oluna bilər.

Şirkətdən verilən məlumata görə, bionik linzanın qiyməti 3200 ABŞ dolları təşkil edəcək.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbərinə “Media haqqında” qanun barədə məlumat verilib



Yanvarın 28-də Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko Medianın İnkişafı Agentliyində olub.

AZƏRTAC xəbər verir ki, agentliyin icraçı direktoru Əhməd İsmayılov həmsöhbətinə ölkəmizdə media islahatlarının gedişi və “Media haqqında” qanun barədə məlumat verib.

Görüşdə maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan MDB ölkələrindən ən çox Rusiyaya məhsul göndərib




Keçən il Azərbaycan MDB ölkələri arasında ən çox Rusiyaya məhsul ixrac edib.

Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın MDB ölkələri arasında ən çox məhsul ixrac etdiyi ölkələr Rusiya, Ukrayna və Belarusdur. Rusiyaya ixrac olunan məhsulların dəyəri 920,8 milyon ABŞ dolları, Ukraynaya 452,4 milyon dollar, Belarusa isə 295,5 milyon dollar olub.

## “Olimpiya Mədəniyyəti və Təhsil Proqramı” çərçivəsində Azərbaycan-Çin Mədəniyyət Festivalı keçirilib

“Olimpiya Mədəniyyəti və Təhsil Proqramı” (OCEP) çərçivəsində yanvarın 28-də paytaxtın Nizami rayonundakı şəhid Namiq Həmzəyev adına 238 saylı tam orta məktəbdə “Pekin-2022” Qış Olimpiya Oyunlarına həsr olunmuş Azərbaycan-Çin Mədəniyyət Festivalı keçirilib.

AZƏRTAC xəbər verir ki, mədəniyyət festivalının iştirakçıları - MOK-un Beynəlxalq əlaqələr şöbəsinin müdiri, “Pekin-2022” XXIV Qış Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar Bağırov, Çinin Azərbaycandakı səfirliyinin nümayəndəsi baş konsulu Ding Tau şəhid Namiq Həmzəyevin məktəbin həyətindəki abidəsi önünə gül dəstələri qoyub, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsini dərin ehtiramla yad ediblər.

Məktəbin idmançı şagirdlərinin təqdimatından və Çin mətbəxinin nümunələri ilə tanışlıqdan sonra akt zalında festivalın rəsmi hissəsi keçirilib.

İştirakçıları Azərbaycan və Çin dillərində salamlayan şagirdlər hər iki xalqın mədəni irsini özündə ehtiva edən xüsusi kompozisiyalar nümayiş etdiriblər.

Çinin Azərbaycandakı səfirliyinin baş konsulu Ding Tau çıxış edərək tədbirin təşkilindən və gələcəyimiz olan uşaqların idmana böyük maraq göstərmələrindən məmnunluğunu bildirib.

Tədbirdə MOK-un təşəbbüsü ilə start verilmiş və ölkədə geniş dəstək qazanmış Olimpiya hərəkatı və onun hörmət, dostluq və mükəmməllik dəyərlərini özündə ehtiva edən OCEP proqramı, “Pekin-2022” Qış Olimpiya Oyunları haqqında ətraflı məlumat verilib.

OCEP layihəsinin birinci mövsümündə bu proqrama 100 mindən çox şagirdin və 6 mindən artıq müəllimin cəlb edildiyi, Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya komitələrinin layihənin icrasını böyük rəğbətlə qarşıladıqları qeyd olunub.

Sonra qonaqlara fevralın 4-20-də Pekində keçiriləcək Qış Olimpiya Oyunları, Pekin Olimpiadasının proqramında yer alan idman növləri haqqında məlumat verilib. Olimpiadada Azərbaycanı fiqurlu konkisürmə yarışlarında Vladimir Litvintsev və Yekaterina Ryabovanın təmsil edəcəkləri bildirilib.

Tədbirdə məktəblilər arasında minihokkey oyunu keçirilib. Həmçinin şagirdlər mahnı və rəqslər ifa edib, şeirlər söyləyiblər.

Azərbaycan-Çin Mədəniyyət Festivalının sonunda məktəblilərə hədiyyələr təqdim olunub.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**



## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

“Dənizçi” MTK-nın balansında olan yüksəkmərtəbəli 2B yaşayış binasında döşəməyə taxta reykanın yığılaraq dikt və laminatın vurulması xidmətlərinin (mal-material və işçilik birlikdə) satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 fevral 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində və 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Neftçilər prospekti 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.

***Tender komissiyası***


**◆ Dünya gündəmi**



# Qırğızıstan və Tacikistan atəşkəs elan etdi

## Sərhədlərə toplanılan hərbi qüvvə və texnikalar geri çəkilir

Qırğızıstan-Tacikistan sərhədində gərgin vəziyyət yaranıb. Sərhədin bir hissəsində hərbçilər arasında atışma baş verib. Rəsmi Bişkekin məlumatına görə, Qırğızıstan sərhədçilərinə qarşı Tacikistan tərəfinin silahdan istifadə etməsi ilə əlaqədar vəziyyət ağırlaşıb.

Qırğızıstanın Sərhəd Xidmətinin məlumatına görə, hadisə Batken - İsfana şosesinin Tert-Keçe qəsəbəsində yolun bir hissəsini bağlayan qonşular tərəfindən törədilib. Problem əvvəlcə həll olunsa da, sonradan yeni qüvvə ilə alovlanıb.

Qırğızıstanın Səhiyyə Nazirliyi bildirib ki, atışma zamanı ölkənin dörd hərbi qulluqçusu və üç mülki şəxs yaralanıb. Öncə atışma zamanı 4 hərbçi qəlpə yarası alıb. Bir qədər sonra isə daha 3 yaralı təcili yardım xətti ilə Batken Regional Birləşmiş Xəstəxanasına çatdırılıb. Onlar mülki şəxslərdir. Məlumata əsasən, iki nəfərə bədənin müxtəlif nahiyələrində qəlpə yaraları, birinə isə güllə yarası diaqnozu qoyulub. Ümumilikdə 7 nəfər yaralanıb.

Sərhəd xidmətinin məlumatına əsasən, tacik hərbçiləri minaatanlardan və qumbaraatanlardan istifadə ediblər. Bundan əlavə, münaqişə zonasına ağır texnika və şəxsi heyəti gətirilib.

Qırğızıstanda bəyan ediblər ki, Düşənbə atəşkəs tələblərinə məhəl qoymayaraq elektrikötürücü xətlərini və sərhəd zastavalarını atəşə tutub. Hərbçilər arasında döyüşlər Koço-Boyu və Daxma adlanan yerlərdə davam edib.

Qırğızıstan hakimiyyəti sərhəd münaqişəsi rayonunda yerləşən kəndlərin sakinlərinin təxliyə edilməsinə başlayıb. Batken vilayətinin Administrasiyasından verilən məlumata görə, ilk növbədə qadınlar, uşaqlar və qocalar təhlükəsiz yerlərə aparılıb.

Tacikistan Respublikası Milli Təhlükəsizlik Komitəsi öz növbəsində respublikanın dinc sakinləri və sərhədçiləri arasında baş vermiş itki barədə məlumat verib. MTK-nın məlumatına görə, Qırğızıstan tərəfindən Tacikistan istiqamətində intensiv mina atəşi həyata keçirilib. Həmçinin Düşənbədə bəyan ediblər ki, Bişkek pilotsuz uçuş aparatlarından istifadə edərək ölkənin hava sərhədlərini pozub.

“Xovar” Agentliyi MTK-ya istinadən xəbər verir ki, Tacikistanın iki vətəndaşı həlak olub, daha 10 nəfər - altı hərbçi və dörd mülki şəxs yaralanıb. Tacikistan Sərhəd Xidmətinin əməkdaşları hadisə yerində gücləndirilmiş xidmət rejiminə keçiblər.

### Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından ciddi xəbərdarlıq

Tacikistan tərəfinin təşəbbüsü ilə Qırğızıstan Sərhəd Xidmətinin direktoru Ularbek Şarşeyev və Tacikistan Sərhəd Qoşunlarının Komandanı Rəcəbəli Rəhmonali arasında telefon danışığı olub.

Atəşkəs dövründə Qırğızıstan Respublikası Prezidentinin Batken vilayətində səlahiyyətli nümayəndəsi Abdikarim Əlimbayevin Tacikistan Respublikasının Soqdi vilayətinin qubernatoru, eləcə də tərəflərin sərhəd nümayəndələri ilə görüşü nəzərdə tutulub. İddia edilir ki, bu danışıqlar qırğız hərbçilərinin mövqelərinin atəşə tutulmasına görə baş tutmayıb.

Məlumat verilib ki, Qırğızıstan nümayəndəsi nizamlanma üzrə danışıqlara gəlmədikdən sonra qırğız sərhədçiləri Tacikistanın dinc vətəndaşlarına qarşı atəş açıblar.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Stanislav Zas Tacikistan və Qırğızıstan Təhlükəsizlik şuralarının katibləri Nəsrullo Mahmudzoda və Marat İmanqulovla telefon danışığı aparıb. Stanislav Zas tərəfləri atəşin dərhal dayandırılmasına çağırıb.

Son məlumatlara görə, Qırğızıstan və Tacikistan atəşkəs elan ediblər və qüvvələrin sərhəddən çəkilməsi barədə razılığa gəliblər.

Tacikistan və Qırğızıstanın səlahiyyətli orqanlarının nümayəndələri iki respublikanın sərhədində baş vermiş münaqişənin səbəblərini öyrənirlər.

### Sərhəddə yerli sakinlər arasında münaqişələr yaranır

Tacikistan və Qırğızıstanın sərhədinin uzunluğu 950 kilometrdir. Sovet İttifaqının dağılmasından sonra orada onlarca mübahisəli sahə qalıb. Demarkasiya və delimitasiya üzrə danışıqlar prosesi 2002-ci ildə fəallaşıb və o vaxtdan etibarən komissiyaların və işçi qrupların iki yüzə yaxın iclası keçirilib.

Hazırda sərhədin delimitasiyası və demarkasiyası prosesində artıq 550 km keçmə xətti razılaşdırılıb. Lakin indiyədək iki ölkənin sərhədində bəzən yerli sakinlər arasında münaqişələr yaranır.

2014-cü ildən başlayaraq Qırğızıstan-Tacikistan sərhədində 11 ciddi toqquşma baş verib. Bununla yanaşı, beş sərhədyanı insident məhz 2014-cü ilə təsadüf edib. 2016-2018-ci illərdə nisbi sakitlik dövrü başlayıb. Meydana çıxan münaqişələrə baxmayaraq, tərəflər odlu silahdan istifadə etməkdən çəkiniblər. Ciddi toqquşmalar 2019-cu ildən başlayıb.

***Rizvan HİLALOĞLU,***
***“Azərbaycan”***

*Əvvəli 1-ci səh.*

# Paşinyan prezidentliyə yeni namizədi də xaricdən seçə bilər

## İrəvanda siyasi gərginlik daxili savaşa yol açır

Yeni prezidentin müəyyən konstitusion səlahiyyətləri var, lakin onlar həlledici əhəmiyyət kəsb etmir.

Xatırladaq ki, Ermənistanda prezident parlament tərəfindən seçilir. Bu günlərdə isə ölkədə növbəti prezidentin kimliyi məsələsi gündəmə gəlib. Məlumdur ki, keçmiş prezidentlər Robert Koçaryanla, Serj Sarkisyanın bu postu tutmaq şansları yoxdur. Çünki baş nazir Nikol Paşinyanın parlament çoxluğu buna imkan verməyəcək. Ona görə də bütün siyasi proseslərdə ortada atılıb-düşən, lakin xalqın etimadını illər öncə itirən keçmiş hərbi xuntanın bu istiqamətdə fəaliyyəti hiss olunmur.

Maraqlıdır ki, ölkə mediasında ilk prezident Levon Ter-Petrosyanın adı daha çox hallanmağa başlayıb. Bu baş verərsə, bir sıra qüvvələrin onun namizədliyini dəstəkləməsi təəccüblü olmayacaq. Lakin Ter-Petrosyanın notariat kontoru rolunu oynayan və cüzi səlahiyyətlərə malik prezident olmağa razılıq verməsi də gözlənilən hadisə deyil.

Nikol Paşinyan Konstitusiya dəyişikliklərinin baş verməsi fonunda prezidentin səlahiyyətləri genişləndirildiyi halda özü də həmin vəzifəni tutmağa maraq göstərə bilər. Digər bir proqnoz da var ki, növbəti prezident də Armen Sarkisyan kimi xaricdən gətirilə bilər. Hazırkı vəziyyətdə hakimiyyət də bu addımı müsbət qarşılaya bilər. Həm erməni diasporu ilə münasibətlərini davam etdirmək, həm də daxildə narazılıq yaratmamaq üçün Paşinyanın bu addımı atması daha real variant sayılır.

Xatırladaq ki, İrəvandakı siyasi proseslərdə xaricdəki erməni lobbisi önəmli rola malikdir. Onlar bu ölkədə cərəyan edən proseslərə ciddi təsir etmək imkanına malikdirlər. Bu fonda Armen Sarkisyanı əvəz edəcək birinin yenə də ölkə xaricindən olacağı ehtimalı daha yüksəkdir.

Belə bir vaxtda N.Paşinyanın bütün cəhdlərinə rəğmən, bu ölkənin Rusiyadan aldığı qazın qiymətində hələ də hansısa güzəşt edilməsi gözlənilmir. Buna görə də Nikol Paşinyan iqtidarı ciddi tənqid hədəfinə çevrilib. Qeyd edək ki, İrəvan və Moskva arasında əldə olunan razılaşmalara əsasən, yaxın 10 ildə Ermənistana verilən qazın tarifinin dəyişməyəcəyi bəyan edilmişdi. Yeni 1000 kub qaz üçün 165 dollar qiyməti sabit olaraq qalacaq. Ermənistan hökuməti əvvəllər yerinə yetirilməmiş öhdəliklərə görə də “Qazprom”un “Hrazdan-5” şirkətinə 10 il ərzində təxminən 32 milyon dollar ödəməli olacaq. Ermənistanda isə əhali yaxın illər üçün idxal olunan qazın qiymətində sabitliyin yaranacağını düşünürdü.

“4rd.am” saytı yazır ki, vəziyyət belə deyil və hökumət bütün bunların içində mümkün bir detalı gizlədib. Söhbət qazın kalorisindən (keyfiyyətindən) asılı olaraq qiymətinin dəyişməsindən gedir: “Belə ki, 165 dollarlıq qazın idxal qiyməti yalnız 7900 kaloriyə qədər olan qaza aiddir. Bu arada isə Ermənistanın daha yüksək kalorili qaz aldığı məlum olur və hazırda həmin qaz 8300 kkal-a çatır. Nəticədə Ermənistan hökuməti daha çox kalori üçün əlavə ödəniş etməli olacaq. Ermənistan hakimiyyəti daxildə belə bir fikir yaradıb ki, xaricdən gətirilən qazın qiyməti qalxmır, əslində isə indiyə qədər nəzərə alınmayan kalorilər hesabına yüksəlir. İndi kalorilərdən asılı olaraq 165 dolların sabit qiyməti 7900 kilokaloriyə qədər qaza aiddir”.

Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə 44 günlük İkinci Qarabağ müharibəsində üzləşdikləri faciəni özlərini aldatmağın nəticəsi hesab edir. Mirzoyan jurnalistlərə açıqlamasında deyib: “Bəsdir özümüzü aldatdıq, yalanlarla yaşadıq. 44 günlük müharibədə başımıza gələn faciədə özümüz günahkarıq. Başımıza gələn faciə özümüzü aldatmağın nəticəsidir. Reallığın gözünün içinə baxmaq, bir-birimizlə birbaşa danışmaq, heç nəyi gizlətməmək lazımdır”.

Nazir müxalifətin Türkiyə və Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlarla bağlı tənqidinə cavab verməkdən yayınıb. Ancaq bununla belə, 1990-cı illərdən Türkiyə ilə vaxtaşırı danışıqların və ya yazışmaların aparıldığını, lakin bu barədə cəmiyyətə məlumat verilmədiyinin necə ortaya çıxdığını izah etməyi xahiş edib.

Beləliklə, son hadisələr Ermənistanda ictimai-siyasi proseslərin daha gərgin mərhələyə qədəm qoyduğunu aydın göstərir. Bu gərginliyin daxili savaşa yol açacağı da istisna olunmur.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Tovuz rayonu istiqamətində mövqelərimiz atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri yanvarın 27-si saat 20:58-dən 23:00-dək dövlət sərhədinin Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqəsində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Koxanəbi yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ordumuzun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən müvafiq tədbirlər görülüb. Azərbaycan Ordusunun sıralarında şəxsi heyət və hərbi texnika baxımından itki yoxdur.

Əməliyyat şəraiti Azərbaycan Ordusunun tam nəzarəti altındadır.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti



**“Caspian Lights” MMC şirkətinə məxsus (VÖEN 1004998061) ciddi hesabat blankları, kassa mədaxil orderləri KLO-1 seriya ƏEX 415901- 416000 aralığında (cəmi 100 ədəd) itdiyi üçün etibarsız sayılır.**



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5047
Sifariş 219
Qiyməti 40 qəpik